# Bank işinə dair Testlər Toplusu [ 01.11.2022]

**Müəllif:** Ramal Əhmədov (bank inzibatçısı)

**Bankda kariyera qurmaq istəyən və attestasiya hazırlaşan şəxslərə şad xəbər ! Azərbaycanda İLK dəfə bank işinə aid demək olar ki, bütün sahələri əhatə edən tədris tipli testlər toplusunu cavab kartı ilə birlikdə, elektron kitab şəkilində, ödənişsiz əldə etmək imkanı.**

Sizə təqdim edilən test suallarının tərtibatında nəzərdə tutulmuş əsas məqsəd qısa zamanda bank işinə aid lazımı qanunvericilik aktlarının xatirlaması və biliklərinizin yoxlamasına yardımçı olmaqdır. Testlərin tərtibatında doğru cavabı yox yalnış cavabı tapmanız istənilir, odur ki, doğru cavabı bildiyinizə əmin olduğunuz halda digər bəndləri də oxumağınız Sizə əlavə üstünlük qazandırır. Cavab kartında düzgün cavab, istinad olunan qanun və maddəsi həmçinin mənbəyə birbaşa keçid mövcuddur ki, mübahisəli hesab etdiyiniz bəndlərə vaxt itirmədən nəzər yetirəsiniz. İstinad mənbələrinin sonuncu yenilənmə tarixləri əlavə olaraq göstərilmişdir ki, testə nəzər yetirən şəxsdə yenilənmiş qanunlarla uyğunsuz cavablar olmasin və qanunvericilikdə dəyişiklər olduqca testləri yeniləmək asan və davamlı olsun.

**01.11.2022 tarixinədək qanunvercilikdə baş verən dəyişikliklər nəzərə alinmaqla testlər yenindən hazirlanmışdır. Hər birinizə uğurlar!**

**Qeyd 1:** 28.11.2019 tarixindən etibarən maliyyə bazarlarına nəzarət orqani Azərbaycan Respublikası Mərkəzi Bankıdır.

**Qeyd 2:** Bu yazıdakı bütün fikirlər, testlərin tərtibatı müəllifin şəxsi mülahizələri olub, işlədiyi təşkilata aid edilə bilməz. Tədris materialı qeyri-kommersiya məqsədi ilə hazırlanmışdır. Hal-hazırda internetdə bu qədər geniş mövzuları əhatə edən və yenilənmiş qanun və qaydalara istinad edən ödənişsiz , elektron testlər toplusu yoxdur.

İrad və təklifləriniz barədə mənə yazmağı unutmayın.

## Bank işinə aid testlər toplusu

1. **Xüsusi halları nəzərə alınmadıqda banklar aşağıdakı fəaliyyətlərdən hansı ilə məşğul ola bilməz?**
   a) fiziki və hüquqi şəxslərdən depozitlərin cəlb edilməsi
   b) öz adından və öz hesabına kreditlərin verilməsi
   c) köçürmə və hesablaşma-kassa əməliyyatları
   d) sığorta fəaliyyəti

2. **Qənaətbəxş maliyyə vəziyyəti olan banklar aşağıdakı faəliyyət növlərinin biri ilə məşğul ola bilməz**
   a) faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri
   b) qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər
   c) topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti sığorta fəaliyyəti
   d) yol çekləri və bank köçürmə veksellərinin buraxılması

3. **Hansı bankların faəliyyət növünə aid deyil (xüsusi hallar nəzərə alınmadıqda ) ?**
   a) valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi;
   b) Lotoreyaların istehsalı və topdan satışı
   c) maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;
   d) pul vəsaitlərini saxlanca qəbul etmək

4. **Bankın filialı haqqında sadalananlardan biri yalnışdır**
   a) Öz əsasnaməsi olan ayrıca hüquqi şəxsdir
   b) Bankın olduğu yerdən kənarda yerləşir
   c) Öhdəliklərinə görə bankın özü məsuliyyət daşıyır
   d) Kreditlər verə və depozitlər cəlb edə bilər

5. **Bank şöbəsini, bankın nümayəndəliyindən fərqləndirən nədir?**

a) Hüquqi şəxs olması
b) Bankın mənafeyini təmsil etməsi
c) Bank fəaliyyəti ilə məşğul olmaq hüququ
d) Nümayəndəlik ancaq depozit cəlb edə bilir

6. **Bank krediti haqqında deyilənlərdən hansı yalnışdır ?**
   a) Bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmalıdır
   b) Müddətin uzaldılması şərtinin müqavilədə olması zəruridir
   c) Təminatsız verilə bilər
   d) Pul vəsaitinin verilməsinə dair qarantiya və zəmanət öhdəlikləri kredit anlayışına aid deyil

7. **Depozit haqqında deyilənlərdən hansı yalnışdır ?**
   a) Depozit müqaviləsi 0 (sıfır) % dərəcəsi ilə bağlana bilməz
   b) Tələbli və ya müddətli ola bilər
   c) Cari hesabda saxlanılan vəsait də depozit sayılır
   d) Müştərinin tələbi ilə qaytarılmalıdır

8. **Aşağıdakılardan hansı bank inzibatçısı deyil**
   a) Müşahidə Şurasının , Audit Komitəsinin , İdarə heyətinin üzvləri
   b) Bankda mühüm iştirak payına malik olan səhmdarları mütləq inzibatçıdırlar
   c) Bankın baş mühasibi, daxili audit bölməsinin əməkdaşları
   d) Bankın filialının rəhbəri və baş mühasibi

9. **Aşağıdakılardan hansı bank inzibatçısı olmaya da bilər**
   a) Mükafatlandırma komitəsinin sədri
   b) Risklərinin İdarə edilməsi komitəsinin sədri
   c) Audit komitəsinin üzvləri
   d) Bank nümayəndəliyinin rəhbəri

10. **Banka aidiyyatı olan şəxs deyil**
    a) Satış departamentinin direktoru
    b) Kredit komitəsinin səsvermə hüquqlu üzvü
    c) Bank şöbəsinin rəhbəri
    d) Bankda fəaliyyəti olmayan səhmdarlar

11. **Banka aidiyyati olmayan şəxsi tapın**
    a) Bankın qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlərinə malik hər hansı şəxs
    b) Bankın nizamnamə kapitalında 15 faiz paya malik olan fiziki şəxs
    c) Bankın nizamnamə kapitalında 40 faiz paya malik olan hüquqi şəxs
    d) Bankın nizamnamə kapitalında mühüm iştirak payı olan hər hansı şəxs

12. **B MMC , A MMC-nin nizamnamə kapitalında 15% payla iştirak edir. C MMC, B MMC-nin nizamnamə kapitalında 100% payla iştirak edir. A MMC-yə aidiyyatı olmayan şəxs aşağıdakılardan hansıdır?**
    a) C MMC-nin icra orqaninin rəhbərinin qızı
    b) A MMC-nin direktorlar şurasının sədri
    c) B MMC-nin səhmdarının nizamnamə kapitalında 20% payla iştirak edən fiziki şəxs
    d) A MMC-nin direktorlar şurasının üzvünün birbaşa iştirak etdiyi hüquqi şəxs

13. **Bankın filial müdirinin aşağıdakı qohumlarından hansının müraciəti aidiyyatı şəxsin müraciəti kimi dəyərləndirilməyəcək ?**
    a) əri (arvadı), valideynləri, qardaşları və bacıları
    b) ərinin (arvadının) valideynləri, babaları və nənələri

c) ərinin (arvadının) nəvələri
d) övladları, övladlığa götürənləri (götürülənləri)

**14. Banka aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri bankın aktivlərinin 10 % hissəsini təşkil edir. Aşağıdakılardan hansı doğru deyil ?**

a) müstəqil auditorun rəyi olmalıdır
b) səmdarların ümumi yığıncağının sadə səs çoxluğu ilə qəbul edilmiş qərarı olmalıdır
c) səhmlərin azı 60 faizinin sahibinin (səsvermə hüququ olmaqla ) iştirak etdiyi yığıncağın qərarı olmalıdır
d) maliyyə bazarlarına nəzarət orqanının müsbət yazılı rəyi olmalıdır

**15. Bankın məcmu kapitalı 80 milyon manatdır. Banka aidiyyatı şəxs(lər)in kredit tələbinə dair qeyd edilənlərdən hansı doğru deyil ?**

a) fiziki şəxsdirsə 2.4 mln manatdan çox ola bilməz
b) 4 mln manatdan çox məbləğlərə dair qərar müstəqil audit rəyi ilə, müşahidə şurası tərəfindən verilməlidir
c) hüquqi şəxsdirsə 8 mln manatdan çox ola bilməz
d) bütün fiziki və hüquqi şəxslər üzrə 16 mln manatdan çox ola bilməz

**16. Azərbaycan Respublikasının bank sisteminə aid deyil**

a) maliyyə bazarlarına nəzarət orqanı
b) Əmanətlərin sığortalanması fondu
c) Azərbaycan Respublikasının Mərkəzi Bankı
d) kredit təşkilatları

17. **Azərbaycan Respublikasında kredit təşkilatlarının fəaliyyətini tənzimləyən əsas qanunlar hansılardır ?**

1. Azərbaycan Respublikasının Konstitusiyası
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi
3. Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında qanun
4. Bank olmayan kredit təşkilatlan haqqında və Kredit İttifaqları haqqında qanun
5. maliyyə bazarlarına nəzarət orqanının və Mərkəzi Bankın bunlara müvafiq olaraq qəbul edilmiş normativ xarakterli aktları

a) yalnız 1, 3, 4, 5
b) yalnız 3, 4, 5
c) 1,2,3,4,5
d) yalnız 1, 2, 4

**18. Aşağıda sadalananlardan hansı doğru deyil ?**

a) banklar və bank olmayan kredit təşkilatlarına bank fəaliyyətini üçün lisenziyanı maliyyə bazarlarına nəzarət orqanı verir
b) poçt rabitəsinin milli operatoru depozit əməliyyatları həyata keçirə bilər
c) bank olmayan kredit təşkilatları qiymətli metalları girov kimi qəbul edə bilməz
d) Azərbaycan Respublikasının bank sistemində xarici bank kapitalının iştirak limiti maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir.

**19. Bank olmayan kredit təşkilatlarına aid sadalananlardan biri yalnışdır**

a) BOKT-nin hüquqi və fiziki şəxslərdən əmanət (depozit) cəlb etməsi qadağandır.
b) BOKT-lərin nizamnamə (şərikli) kapitalının minimum miqdarı maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən olunur.
c) BOKT-yə verilən lisenziyaların müddəti 5(beş) ildən bir yenilənməlidir.
d) Qeyri-kommersiya BOKT-ləri kommersiya təşkilatları yarada və ya onlarda iştirak edə bilməzlər.

**20. Lisenziya almış BOKT aşağıdakı fəaliyyət növlərindən hansını həyata keçirə bilməz:**

a) BOKT-nin fiziki şəxslərdən əmanət (depozit) cəlbi
b) borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq)
c) lizinq, veksellərin uçotu, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi
d) qarantiyanın verilməsi, sığorta agenti xidmətinin göstərilməsi

**21. Bank lisenziyasının və ya icazənin ləğvinə əsas üçün sadalananlardan biri səhvdir**
a) bankın təsisçilərinin (səhmdarlarının) müraciəti (qərarı) əsasında
b) bank müflis elan edildikdə
c) bankın altı ay müddətində depozitlər və ya digər qaytarılan vəsait cəlb etmədiyi və ya kreditlər verməyi müəyyən edildikdə;
d) məcmu kapitalın adekvatlıq əmsalı 2 faizdən, minimim miqdarı isə normativin dörddə birindən az olduqda

**22. Bank lisenziyasının və ya icazənin ləğvinə əsas üçün sadalananlardan biri səhvdir**
a) Birinci dərəcəli kapital 30 milyon manatdan az olduqda
b) sonuncu üç hesabat tarixinə maliyyə bazarlarına nəzarət orqanına və ya Mərkəzi Banka aylıq hesabat təqdim edilmədikdə
c) bank kreditorları qarşısında öhdəliklərini yerinə yetirə bilmədikdə
d) bankın yenidən təşkili maliyyə bazarlarına nəzarət orqanının icazəsi olmadan həyata keçirildikdə

**23. Bankların təşkilinə və strukturuna dair sadalananlardan biri yalnışdır**
a) ən azı üç hüquqi və/və ya fiziki şəxs tərəfindən yaradılır
b) Siyasi partiyalar, ictimai birliklər, fondlar və digər qeyri-kommersiya təşkilatlan bankın səhmdarı ola bilməzlər.
c) İdarə Heyətinin səlahiyyətləri müqaviləyə əsasən başqa hüquqi şəxsə verilə bilər.
d) Bank yalnız adlı səhmlər buraxa bilər.

**24. Bank səhmdarlarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılardan biri aid deyil**
a) bankın nizamnaməsini, reqlamentini qəbul etmək, əlavə və dəyişikliklər etmək
b) bankın kapital ehtiyatları yaradılması haqqında qərar qəbul etmək
c) bankın faiz dərəcələri, satılması, yenidən təşkili və ləğvi barəsində qərarlar qəbul etmək
d) bankın büdcəsini qəbul və təsdiq etmək

**25. Bank səhmdarlarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılardan biri aid deyil**
a) bankın filiallarını və nümayəndəliklərini yaratmaq və fəaliyyətlərinə xitam vermək, onların əsasnamələrini təsdiq etmək
b) bankın İdarə Heyətinin, Müşahidə Şurasının üzvlərini təyin və azad etmək, əsasnaməsini təsdiq etmək
c) bankın inzibatçılarının işə götürülməsi müddətlərini və şərtlərini müəyyənləşdirmək
d) bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək

**26. Bankın Müşahidə Şurasının səlahiyyətlərinə aşağıdakılardan biri aiddir:**
a) nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək, bank səhmlərinin buraxılması müddətlərini və şərtlərini müəyyənləşdirmək, habelə bankda mühüm iştirak payının əldə edilməsinə razılıq vermək;
b) bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş illik maliyyə hesabatlarını təsdiq etmək, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması və dividentlərin ödənilməsi barədə qərar qəbul etmək;
c) bankın satılması, yenidən təşkili və ləğvi barəsində qərarlar qəbul etmək;
d) bankın Audit Komitəsinin üzvlərini təyin və azad etmək, Audit Komitəsinin əsasnaməsini təsdiq etmək

**27. Bankın Müşahidə Şurası və səlahiyyətlərinə aid deyil**
a) bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi üçün məsuliyyət daşıyır.

b) 3 nəfərdən (fiziki şəxs) az olmamaqla, tək sayda üzvlərdən ibarətdir, üzvlər 3 ildən çox olmayan müddətə təyin edilə bilər
c) iclaslar ən azı üç ayda bir dəfə keçirilir
d) aidiyyəti şəxslərlə dəyəri bankın aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək

**28. Audit Komitəsinin səlahiyyətlərinə aşağıdakılar biri aid deyil**

a) bankın audit siyasətini və strategiyasını müəyyən etmək;
b) daxili audit planlarmı təsdiq etmək və audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirmək;
c) idarəetmə orqanlarının üzvü olan şəxslər bankın Audit Komitəsinin üzvü ola bilməz
d) İdarə Heyətinin qərarı ilə Audit Komitəsinin üzvləri vəzifəsindən azad edilməlidirlər.

**29. Məcmu kapitalı 100 mln olan bank barədə aşağıda sadalananlardan hansı doğru deyil**

a) Kənar hüquqi şəxsdə iştirak payı 10 mln dan çox ola bilməz
b) Bütün kənar hüquqi şəxslərdə iştirakların miqdarı maksimum 40 mln ola bilər
c) Müşahidə Şurası iştirak payının əldə edilməsinin maksimum müddətini müəyyən edir
d) hüquqi şəxslərin kapitalına vəsait qoyuluşları adekvatlıq əmsalları hesablanan zaman nəzərə alınmır

**30. Prudensial normativlər və tələblərə hansı aid deyil ?**

a) nizamnamə və məcmu kapitalının minimum miqdarı
b) Likvidlik, adekvatlı və leverec əmsalları üzrə minimum tələblər
c) bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu və məcmu iri kredit risklərinin maksimum miqdarı
d) müştərilərlə bağladığı müqavilələrə əsasən faiz dərəcələri, komisyon haqqları maksimim məbləği

**31. Prudensial normativlər və tələblərə hansı aid deyil ?**

a) aidiyyəti şəxslərə verilmiş kreditlərin (həmçinin məcmu kreditlərin) maksimum miqdarı
b) bank tərəfindən verilmiş kreditlərin ödənişi şərtlərini və qaydaları
c) digər hüquqi şəxslərin kapitalında bankların iştirakının (həmçinin məcmu) maksimum miqdarı
d) açıq valyuta mövqeyinin limitləri, kredit təşkilatlarında kassa əməliyyatlarının aparılması qaydaları

**32. Aşağıda sadalananlardan hansı doğru deyil**

a) Müştəri bankda olan pul vəsaitini istədiyi miqdarda istədiyi yerə məhdudiyyət olmadan köçürə bilər
b) Bank müştərisinin tələbi ilə lisenziyasını, sonuncu hesabat ili üçün maliyyə hesabatlarını və auditor rəyini təqdim etməlidir
c) Müştərinin bankda olan pul vəsaiti və digər sərvətləri yalnız məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında müsadirə edilə bilər.
d) Müştərinin bankda olan pul vəsaitinə və digər sərvətlərinə qanunda nəzərdə tutulan hallarda və qaydada məhkəmənin və ya icra məmurunun qərarı ilə həbs qoyula bilər

**33. Aşağıda sadalananlardan biri bank sirrini təşkil edən məlumatlara aid deyil**

a) Müştərinin hesabı üzrə əməliyyatlar və qalıqlar
b) müştərinin adı, ünvanı, rəhbərləri haqqında məlumatlar
c) Prudensial tələblərə dair açıqlamalar
d) Müştərilərin bank saxlancında olan əmlakının sahibləri, xarakteri və dəyəri

**34. Müştəriyə aid məlumatların verilməsinə dair sadalananlardan hansı doğru deyil**

a) müştərilərin özlərinə və onların nümayəndələrinə verilə bilər
b) kənar auditorlara, maliyyə monitorinqi orqanına və maliyyə bazarlarına nəzarət orqanına
c) Hüquq mühafizə orqanlarına onların sorğusu əsasında
d) kredit bürolarına "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada

**35. Bank sirrini təşkil edən məlumatların verilməsinin xüsusi qaydası hansı qanunlarda nəzərdə tutulub**

a) "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda
b) Azərbaycan Respublikasının Vergi və Seçki Məcəllərində
c) "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanunu
d) İnzibati xətalar məcəlləsində

**36. Hansı halda müştəriyə dair məlumatlar verilə bilməz**

a) Müştərinin yaxın qohumlarına (ər, arvad, ana, ata və övladları, doğma qardaş və bacılarına)
b) Müştəri vəfat etdikdə və vərəsəlik işləri üzrə arayışlar notariuslara, notariat hərəkətlərini icra edən konsulluq idarələrinə
c) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əsasən
d) Dövlət orqanlarına və onların vəzifəli şəxslərinə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında

**37. Benefisiar mülkiyyətçi kimdir ?**

a) Hüquqi şəxsin icra orqanin rəhbəri və üzvləri
b) pul vəsaitləri və ya digər əmlakla əlaqədar əməliyyatlardan son nəticədə iqtisadi və ya hər hansı digər fayda əldə edən fiziki və ya hüquqi şəxs ,xeyrinə əqdlərin həyata keçirildiyi hüquqi şəxsin əsl sahibi
c) Hüquqi şəxsə mühüm təsiri olan hər hansı şəxs
d) Hüquqi şəxsin adından əqdlər bağlamağa hüququ olan hər hansı şəxs

**38. Hansı müddəa doğru deyil ?**

a) Bankın maliyyə fəaliyyəti hər il auditor fəaliyyətini həyata keçirmək üçün xüsusi razılığa (lisenziyaya) malik olan kənar auditor tərəfindən yoxlanılmalıdır.
b) Banklarda "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin təmin edilməsinə nəzarəti maliyyə bazarlarına nəzarət orqanı həyata keçirir.
c) Banklar qanunvericiliyə və Beynəlxalq Mühasibat Standartlarına uyğun olaraq mühasibat uçotunu aparmalıdir
d) Bank maliyyə ilinin qurtarmasından ən geci 9 ay müddətində konsolidasiya əsasında fəaliyyətlərini və maliyyə vəziyyətini əks etdirən auditor tərəfindən təsdiqlənmiş maliyyə hesabatını auditor rəyi ilə birlikdə maliyyə bazarlarına nəzarət orqanına təqdim etməlidir.

**39. Mərkəzi Bank haqqında sadalananlardan biri doğru deyil**

a) Mərkəzi Bank publik hüquqi şəxsdir
b) Mənfəət götürmək Mərkəzi Bankın əsas məqsədi deyildir
c) Mərkəzi Bankın nizamnamə fondu 5 (beş) milyon manatdır.
d) Mərkəzi Bank öz fəaliyyəti barədə yalnız Azərbaycan Respublikası Prezidentinə hesabat verir.

**40. Sadalananlardan biri Mərkəzi Bankın funksiyalarına aid deyil**

a) Bankların vergi öhdəliklərinin icrasına nəzarət
b) dövlətin pul və valyuta siyasətini müəyyən edir və həyata keçirir
c) nağd pul dövriyyəsini təşkil edir, pul nişanlarının tədavülə buraxılmasını və tədavüldən çıxarılmasını həyata keçirir
d) manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən edir və elan edir

**41. Sadalananlardan biri Mərkəzi Bankın funksiyalarına aid deyil**

a) sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarım saxlayır və idarə edir
b) banklararası mərkəzləşdirilmiş və digər lisenziyalaşdırılmayan ödəniş sistemlərinin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üzərində nəzarəti qanuna uyğun olaraq həyata keçirir
c) qanunvericiliyə uyğun olaraq ölkənin proqnoz tədiyə balansını tərtib edir
d) ölkənin icmal (dövlət və qeyri-dövlət) xarici borc statistikasını və beynəlxalq investisiya balansını tərtib edir, məlumatların ümumiləşdirilməsini və yayılmasını təmin edir

**42. Aşağıdakılardan hansı doğru deyil**

a) Mərkəzi Bank müflis elan oluna bilməz
b) Mərkəzi Bank Azərbaycan Respublikasının dövlət büdcəsi kəsirinin birbaşa maliyyələşdirilməsi üçün dövlətə kredit vermir.
c) Mərkəzi Bank müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış şərtlərlə dövlət xəzinədarlıq hesablarına xidmət göstərir.
d) Mərkəzi Bankın təşkilati strukturuna Müşahidə şurası, İdarə Heyəti, mərkəzi aparat, ərazi idarələri daxildir.

43. **Mərkəzi Bankın pul siyasətinin alətlərinə aid deyil**

a) açıq bazarda əməliyyatların aparılması
b) əhalidən qızıl zinət əşyalarının cəlbi və banklarda əməliyyat mübadiləsində istifadəsi
c) faiz dərəcələrinin müəyyənləşdirilməsi, depozit əməliyyatlarının aparılması;
d) kredit təşkilatları üçün məcburi ehtiyatlanın müəyyənləşdirilməsi, yenidən maliyyələşdirilməsi

44. **Mərkəzi Bankın pul siyasəti alətlərinə aid deyil**

a) Ölkə daxili pul köçürülməsi siteminə nəzarət
b) Özünün, dövlətin buraxdığı qiymətli kağızlarla və xarici valyuta ilə alğı-satqı və digər əməliyyatlar
c) uçot dərəcəsininin, faiz dəhlizinin aşağı və yuxarı həddinin müəyyən edilməsi
d) REPO və əks-REPO əməliyyatlarının aparılması

**45. Pul vahidi və nağd pulun tədavülünə aid qeyd edilənlərdən biri yalnışdır**

a) Pul nişanları kağız və metal pul formasında tədavülə buraxıla bilər
b) Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır.
c) Saxta pul nişanlarının dəyəri ödənilmir və onlar geri qaytarılmır.
d) Dəyişdirilməli olan pul nişanları maksimum 180 gün ərzində qanuni ödəniş vasitəsi sayılır.

46. **Hansı pul nişanları Mərkəzi Bank tərəfindən dəyişdirilmir ?**

**a)** bütöv bir hissədən ibarət səthinin 60 faizindən az olmayan hissəsini saxlamış pul nişanları
**b)** eyni əskinasa məxsus hissələrdən ibarət səthinin 100 faizini saxlamış pul nişanları
**c)** Saxta olan bütün pul nişanları
**d)** tədavülə yararlı pul nişanları məbləğ və say məhdudiyyəti olmadan dəyişdirilir

**47. Mərkəzi Bank hansı əməliyyatları apara bilməz?**

a) Əmanətlərin Sığortalanması Fonduna dövlətin zəmanəti ilə təmin olunmuş kredit verə bilər.
b) Öhdəliklərinin icrasını təmin etmək məqsədi ilə bütün növ kommersiya fəaliyyəti ilə məşğul ola bilər
c) çekləri, vekselləri, qiymətli metalları və qiymətli daşları, habelə bunlardan hazırlanmış məmulatı almaq, satmaq və saxlamaq
d) hesablaşma, kassa, depozit əməliyyatları aparmaq, qiymətli kağızların və başqa sərvətlərin saxlanması və idarə olunması üçün onları qəbul etmək

**48. Aşağıdakılardan biri hüquqi şəxsin verifikasiyası üçün tətbiq edilən tədbirlərdən deyil**

a) hüquqi şəxsin təqdim etdiyi məlumatların hüquqi şəxslərin dövlət reyestrinə daxil edilən məlumatlarla üzləşdirilməsi
b) Hüquq şəxsin qanuni təmsilçisinin yaxın qohumlarına dair məlumatın əldə edilməsi
c) hüquqi şəxsin fəaliyyəti barədə kütləvi informasiya vasitələrindən, internet informasiya ehtiyatlarından və ya rəsmi nəşrlərdən məlumatların əldə olunması
d) əldə olunan yeni məlumatların əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlan ilə üzləşdirilməsi

**49. Aşağıdakılardan biri yüksək riskli əməliyyat hesab edilmir (PL/TMM)**

a) qeyri-rezident müştərilərlə əməliyyatlar, xarici banklarla müxbir hesablan vasitəsilə həyata keçirilən əməliyyatlar
b) pul vəsaitlərinin, qiymətli kağızların və ya digər əmlakın idarə olunması həvalə olunmuş hüquqi şəxslərlə əməliyyatlar
c) nominal saxlayıcı olan və ya sənədli adsız səhmlər buraxmış hüquqi şəxslərlə əməliyyatlar
d) Hüquqi şəxsin divident ödənişləri

**50. Aşağıdakılardan biri limitdən yuxan məbləğdə nağd şəkildə əməliyyat apardığı halda əlavə eyniləşdirmə tədbirinin tətbiqinə ehtiyac yoxdur (PL/TMM)**
a) Bankdan valyuta alışı edən bütün fiziki şəxslər
b) Qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və ya qiymətli metallardan hazırlanmış zərgərlik məmulatlarının alğı-satqısı ilə məşğul olan şəxslər
c) məişət məmulatlarının alqı-satqısı ilə məşğul olan şəxslər
d) daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidməti göstərən şəxslər

**51. Pul siyasəti alətlərinə dair sadalananlardan biri doğru deyil**
a) Sterilizasiya məqsədi ilə Mərkəzi Bank 1-7 günlük REPO əməliyyatlarını həyata keçirir və faiz dəhlizinin aşağı həddi ilə vəsaitləri cəlb edir
b) Emissiya məqsədi ilə Mərkəzi Bank 1-7 günlük əks-REPO əməliyyatlarını həyata keçirir və uçot faiz dərəcəsi ilə yerləşdirir
c) Valyuta alışı/satışı üzrə svop - Mərkəzi Bank tərəfindən xarici valyutanın sonradan geri satmaq/almaq şərtilə kommersiya banklarından alışı(satışı)dır
d) Depozit əməliyyatları, Mərkəzi Bankın qısamüddətli notlarının (istiqrazlarının) yerləşdirilməsi, valyuta satışı üzrə svop, yenidən maliyyələşdirmə kreditləri, Məcburi ehtiyat normaları

52. **Bank hesablarının açılması, aparılması və bağlanması Qaydalarına zidd olan bəndi tapin**
a) Azərbaycan Respublikasında fəaliyyət göstərən banklar ölkə daxilində milli valyutada müxbir hesablarını yalnız Azərbaycan Respublikasının Mərkəzi Bankında açırlar.
b) Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə verilmiş 50.000 AZN-dək yüksək məbləğli kreditlər müştərilərin vergi ödəyicisi qismində açılmış bank hesablarına köçürülür.
c) Dövlət büdcəsindən maliyyələşən təşkilatlara bank hesabının açılması üçün Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlığı Agentliyinin icazə məktubu tələb olunur
d) notariusun depozit hesabı - dövlət və xüsusi notariuslar üçün qanunda nəzərdə tutulmuş hallarda hüquqi və fiziki şəxslərdən pul vəsaitlərinin, qiymətli kağızların daxil olması, saxlanması və digər əməliyyatların aparılması üçündür

53. **Bank hesablarına aid sadalananlardan biri doğru deyil**
a) Cari hesablar əsasən maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarının aparılması üçün açılır
b) Fiziki şəxslər hesabları əsasən daxil olan pul vəsaitinin qəbul edilməsi və hesaba salınması, hesabdan pul vəsaitlərinin köçürülməsi və verilməsi məqsədi ilə açır
c) Cari subhesablar müvafiq struktur bölmələrin işçilərinin əmək haqları və aidiyyatı kommunal xərclərin ödənilməsi üçün istifadə edilir
d) Müvəqqəti cari hesablar ölkə xaricinə pul köçürən fiziki şəxslərə açılır

54. **Bank hesablarının açılması, aparılması və bağlanması Qaydalarına zidd olan bəndi tapin**
a) Müxbir hesablar - bankların özlərinin və müştərilərinin bank əməliyyatlarının aparılması məqsədi ilə yerli və xarici banklar üçün açılan hesabdır.
b) "Öz müştərini tanı" prinsiplərinə dair daxili qaydalar Müşahidə Şurası tərəfindən təsdiq edilir
c) Bank hesabının açılması üçün müraciət etmiş bütün hüquqi şəxs olan yeni müştərinin eyniləşdirmə və verifikasiyası onun fiziki şəxs olan bütün benefisiar mülkiyyətçilərin kimliyinin müəyyən edilməsinə tam əmin olanadək aparılır.
d) Bank daxili qaydalarda müştərinin və benefisiar mülkiyyətçinin eyniləşdirilməsi və verifikasiyası prosedurları olmalidir

**55. PL/TMM Qanununa əsasən maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan ölkələrlə aid olmayanı göstərin**

a) Kuba, Fələstin, Nigeriya, Livan, Yəmən
b) Ermənistan, Kot-D'iuvar, Beliz, Qayana, Myanma
c) İran, İraq, Əfqanıstan, Somali, Sudan, Kongo, Laos
d) Vyetnam, Tailand, Koreya XDR, Tailand, Liberiya

**56. Fiziki şəxs olan yeni müştəri üçün bank hesabının açılmasından öncə :**

a) sanksiya tətbiq edilməli olan şəxslərin siyahısına uyğun olması yoxlanılır (PL/TMM)
b) qeyri-rezident fiziki şəxslər Dövlət Miqrasiya İdarəsindən xüsusi icazə məktubu almalıdırlar
c) xarici dövlətlərin siyasi xadimi olması müəyyən edilməlidir
d) PL/TMM qanununa müvafiq olan siyahıdakı ölkələrlə əməliyyatlar aparacağı müəyyən edilməlidir

**57. Bank hesabının açılması üçün müraciət etmiş hüquqi şəxs olan yeni müştərinin eyniləşdirmə və verifikasiyası üçün sadalananlardan biri doğru deyil**

a) hüquqi şəxsin səhmdar kapitalinda 10% və daha çox payı olan fiziki şəxslər müəyyən edilir və həmin şəxslərin eyniləşdirmə sənədləri əldə edilir
b) Əgər benefisiar mülkiyyətçini müəyyən etmək mümkün deyilsə hüquqi şəxsə rəhbərliyi həyata keçirən fiziki şəxslər eyniləşdirilir və verifikasiyası üçün tədbirlər görülür
c) hüquqi şəxsin benefisiar mülkiyyətçisi və ya hüquqi şəxsin idarəetmə orqan(lar)ının rəhbər(lər)ininin PL/TMM qanunda tutulan əlamətlərlə malik olması müəyyən edilir
d) hüquqi şəxsə aidiyyatı şəxslər müəyyən edilir və verifikasiyası üçün tədbirlər görülür

**58. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxsin bank hesabı yenidən rəsmiləşdirilən zaman aşağıdakılardan hansı tələb olunmamalıdır**

**a)** şəhadətnamə-dublikat və imza nümunələri
**b)** Dövlət reyestrindən çıxarış ən son dəyişikliklərlə
**c)** Nizamnamə və nizamnaməyə əlavələr
**d)** Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənəd məlumatları

**59. İmza və möhür nümunələri vərəqəsi haqqında sadalananlardan biri doğru deyil**

a) hüquqi şəxslərin imza və möhür nümunələri bankın müvafiq idarəetmə orqanı tərəfindən təyin edilən səlahiyyətli şəxsi tərəfindən təsdiq edilə bilər
b) Vərəqədə müştərinin möhürünün əksi həkk olunur və bu zaman "kadrlar üçün", "buraxılış üçün", "arayışlar üçün" və buna oxşar məqsədlər üçün möhür və ştamplardan istifadə oluna bilməz
c) Möhür itirildikdə rəsmiləşmə qaydaları müştəri ilə bank arasında yazılı razılıq əsasında müəyyənləşdirilə bilər
d) Hüquqi şəxsin imza nümunəsi vərəqəsində birdən çox şəxsin adı olduqda və hüquqları müəyyən edilmədikdə (qeydlər olmadıqda) bank hesabı üzrə sərəncam yalnız həmin təşkilatın rəhbərinin imzası ilə icra edilir

**60. Məsafədən bank hesabının açılması qaydalarına zidd olan bəndi göstərin (müvafiq sənədlərdən əlavə)**

a) rezident hüquqi şəxslər , sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və qeyri-rezident şəxslər üçün gücləndirilmiş elektron imza və video görüntü birgə tələb olunur
b) rezident fiziki şəxslər üçün illik mədaxil həcmi 6000 AZN-dək (və ya ekv) olduqda video görüntü ilə xüsusi təyinatlı informasiya resursu vasitəsilə eyniləşdirməklə
c) rezident və qeyri-rezident fiziki şəxslər üçün illik mədaxil həcmi 500 AZN-dək (və ya ekv) müvafiq informasiya resursunda autentifikasiya vasitəsilə
d) Məsafədən bank hesabının açılması zamanı imza və möhür nümunələri vərəqəsinin tərtib edilməsi tələb edilmir

**61. Aşağıdakı hallardan birində bank hesabının açılmasından imtina üçün əsas deyil**

a) bank hesabının açılması üçün sənədlər tam təqdim edilmədikdə
b) hesab açmaq istəyən şəxsin yaşı 18 yaşdan az olduqda
c) benefisiar mülkiyyətçinin eyniləşdirmə məlumatları PL/TMM Qanununun 7.3-1-ci maddəsində göstərilmiş siyahıda olduqda;
d) verilmiş məlumatlarda qeyri-dürüst, təhrif olunmuş və ya ziddiyyətli məlumatlar olduqda

**62. Aşağıdakılardan hansı bank hesabının bağlanması üçün əsas hesab oluna bilməz**

a) müştərinin və ya səlahiyyətli nümayəndəsinin ərizəsi daxil olduqda
b) hesab müqaviləsinin ləğv edilməsi, Dövlət Xəzinədarlığı Agentliyinin icazəsi geri çağırılması
c) Müştəri və benefisiar mülkiyyətçinin eyniləşdirilməsi və verifikasiyası ilə bağlı tələblər yerinə yetirilə bilinmədiyi, müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığına dair şübhələr olduğu, habelə müştərinin işgüzar münasibətlərinin mahiyyəti və məqsədi barədə məlumatlar əldə etmək mümkün olmadığı hallarda
d) Müştərinin bankdan aldığı kredit ümidsiz kredit kimi təsnifləşdirildiyi halda

**63. Aşağıdakılardan hansı fiziki şəxslərdən eyniləşdirilməsi üçün tələb olunan məlumatlara aid deyil**

a) Vaxtı keçmiş kredit öhdəliklərinə dair məlumat
b) Siyasi xadim olması və ya siyasi xadimin yaxın ailə üzvü, qohumu olması
c) Son 12 aylıq dövrdə orta aylıq dövriyyəsi, mənfəətinin orta aylıq həcmi, xaricə edilən köçürmələrin orta aylıq məbləği
d) Hazırkı iş yeri, vəzifəsi, gəlir mənbəyi

**64. Aşağıdakılardan hansı fiziki şəxslərdən eyniləşdirilməsi üçün tələb olunan məlumatlara aid deyil**

a) Hazırkı aktivlərin həcmi, son 12 aylıq dövrə dair maliyyə məlumatları
b) Hazırkı fəaliyyət sahələri, əməkdaşlarının ümumi sayı, filial, şöbə və ya nümayəndəliklərinin sayı
c) Benefisiar mülkiyyətçinin yaxın qohumlarına dair məlumatlar
d) 10%-dən yuxarı həcmdə paya malik olan təsisçil(ər)in, səhmdar(lar)ın adları, soyadı, atasının adı, təvəllüdü

**65. Aşağıdakı hesab açma hallarından birində tələb olunan sənəd düzgün qeyd edilməyib**

a) *Bələdiyyələr* - bələdiyyənin nizamnaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmiş hüquqi aktın mətni;
b) *Dövlət və xüsusi notariusun depozit hesabı* – Vergilər Nazirliyinin müvafiq qurumunun notariusun bankda depozit hesabının açılmasına razılıq məktubu
c) *Həmkarlar ittifaqının ilk təşkilatı* - Həmkarlar ittifaqı ilk təşkilatının yaradılması haqqında qərar və ya qərardan çıxarış
d) *Zəmanət kassası* - xüsusi notariusun qeydiyyat vəsiqəsinin notariat qaydasında təsdiq edilmiş surəti

**66. Aşağıdakılardan hansı standart imza nümunəsində göstərilmir**

a) Hesabın sahibinin tam adı, ünvanı
b) Hesab sahibi hüquqi şəxs olduqda benefisiar mülkiyyətçisinə dair məlumat
c) İmza nümunəsi təqdim ediləcək bankın adı, SWIFT kodu, ünvanı
d) Hesab nömrəsi, səlahiyyətli şəxslərin adı, imza və möhür nümunələri

**67. Aşağıda sadalananlardan hansının açıqlaması doğru deyil**

a) KTN əmsalı – kreditin məbləğinin (əsas borc və kredit müqaviləsi üzrə hesablanacaq faiz borcu) kredit üzrə təminatın bazar dəyərinə nisbəti əmsalı;
b) istehlak krediti – sahibkarlıq və ya peşə fəaliyyəti, habelə daşınmaz əmlakın əldə edilməsi və tikintisi ilə bağlı olmayan məqsədlər üçün fiziki şəxslərə verilən kredit;
c) qeyri-işlək kredit – maliyyə bazarlarına nəzarət orqanın normativ xarakterli aktlarına əsasən qeyri-standart aktiv (gecikmə>90 gün) kimi təsnifləşdirilmiş kredit;

d) BGN əmsalı – istehlak kreditləri üzrə borcalanın aylıq borc yükünün (yeni kredit nəzərə alınmadan) onun gəlirlərinə nisbəti əmsalı

**68. Istehlak kreditləri üzrə borcalanın ödəmə qabiliyyətinin və risklərinin qiymətləndirilməsi üçün aşağıdakılardan hansı məcburi tələb deyil**

a) borcalanın BGN və KTN əmsalı
b) borcalanın yaşı və iş təcrübəsi, kredit tarixçəsi
c) kreditin məqsədi və onun ödənilməsi mənbəyi, gəlirlərə və xərclərə dair proqnoz
d) borcalanın təhsili, hərbi mükəlləfiyyəti və son 2 iki illik gəlirlərinə dair təsdiq edici sənədlər

**69. Borcalanın kredit risklərinin qiymətləndirilməsinə dair sadalananlardan biri doğru deyil**

a) borcalanın ödəmə qabiliyyətinin qiymətləndirilməsi tələb olunmadan kredit verilə bilər
b) Kredit tələbinin yaranması zamanı borcalanın banka aidiyyəti olan şəxslərə aid olması yoxlanılmalıdır
c) Xarici valyutada gəliri olan fiziki şəxslərə istehlak krediti verilmir
d) Kiçik sahibkarlara verilən biznes kreditləri üçün ən azı bir illik dövriyyə və maliyyə hesabatları alınmalıdır

**70. Təminatın qiymətləndirilməsi zamanı nəzərə alınmalı tələblərdən biri doğru deyil**

a) kredit tələbinin təmin edilmiş hissəsinin nəzərə alınması üçün təminatın bazar qiyməti ən azı 2(iki) ildə bir dəfə yenidən qiymətləndirilməlidir
b) Zaminin ödəmə qabiliyyəti kredit alanın ödəmə qabiliyyəti ilə eyni formada qiymətləndirilir
c) təminat qismində daşınar əmlak çıxış etdikdə, onun yüklülüyü Daşınar Əmlakın Yüklülüyünün Dövlət Reyestrində yoxlanılmalıdır, təminat üzərində bankın hüquqları qanunvericiliyə uyğun olaraq rəsmiləşdirilir
d) təminat qismində əmlak çıxış etdikdə, onun bazar qiyməti və satış imkanları təhlil edilir və təminatın müddəti təmin etdiyi öhdəliyin müddətindən az olmamalıdır.

**71. Məcmu kapitalı 150 milyon AZN olan banka qarşı kredit tələbi mövcuddur. Təqdim edilən təminatın qiymətləndirilməsi üçün sadalananladan biri doğru deyil.**

a) 5 milyon AZN məbləğli kredit tələbi üçün qiymətləndirici bankın əməkdaşı ola bilməz
b) 10 milyon AZN məbləğli kredit tələbi üçün təminat müstəqil və kənar şəxs olan iki qiymətləndirici tərəfindən ayrıca qiymətləndirməlidir
c) 7.5 milyon AZN məbləğinədək kredit tələbləri üzrə təminatın qiymətləndirilməsi bir şəxs tərəfindən aparıla bilər
d) Qiymətləndirici təminatın sahibinə və borcalana aidiyyəti olan şəxs olmamalıdır

**72. Kredit inzibatçılığına dair sadalananlardan biri doğru deyil**

a) Kreditlər üzrə müraciətlərin reyestri aparılır ,bank kredit üçün müraciət edən şəxsə onun sorğusu əsasında imtinanın səbəblərini göstərməklə aydın şəkildə yazılı cavab verir
b) Borcalan banka aidiyyəti hüquqi olan şəxs olduqda onun auditor rəyi ilə təsdiq edilmiş (olduqda) ən azı son üç illik maliyyə hesabatları dosyada saxlanılmalıdır
c) Kredit verildikdə borcalanla bank arasında kredit müqaviləsi imzalanır və şərtlər aydın şəkildə qeyd edilir
d) Borcalan hüquqi şəxs olduqda, onun səlahiyyətli idarəetmə orqanının kreditin alınması haqqında müvafiq qərarı və kredit sənədlərini imzalamaq hüququ olan şəxsin səlahiyyətini təsdiq edən sənəd olmalıdır

**73. Təminata dair hansı sənədlər kredit dosyasında saxlanmaya bilər**

a) Girov predmeti üzrə mülkiyyət hüququnu təsdiq edən sənədlərin surəti
b) Qanunvericiliyə uyğun olaraq girov predmetinin qiymətləndirilməsi tarixi, metodu, qiymətləndirici göstərilməklə qiymətləndirmənin nəticələri barədə hesabat;

c) Ticarət obyekti girov predmeti olduğu halda borcalanın həyat yoldaşının və ailə üzvlərindən 18 yaşa çatmış şəxslərin razılığı alınaraq dosyada saxlanmalıdır
d) Bank tərəfindən girov predmetinin bankın xeyrinə sığortalanması tələb edildikdə sığorta ilə bağlı sənədlər

**74. FİFD-in hesablanmasında aşağıda qeyd edilənlərdən hansı nəzərə alınır**
a) kredit müqaviləsinin şərtləri ilə əlaqədar deyil, ölkə qanunvericiliyinin tələblərindən irəli gələn xərclər
b) borcalanın kredit müqaviləsinin şərtlərinə əməl etməməsi ilə bağlı yarana biləcək xərclər
c) kredit borcunun müəyyən və ya tam hissəsinin vaxtından əvvəl bağlanması üzrə komisyon xərcləri
d) kreditin illik faiz dərəcəsi, ödəniş müddəti, veriləcək kreditdən tutulacaq komisyon haqqlar

**75. Kreditlərin restrukturizasiyasına aid qeyd edilənlərdən biri doğru deyil**
a) təminatın sonuncu qiymətləndirilmə tarixindən restrukturizasiya tarixinə 12 aydan çox müddət keçdikdə təminat yenidən qiymətləndirilir;
b) Borcalanın ödəmə davranışına müvafiq olaraq restrukturizasiya tədbirlərinin səmərəliliyi monitorinq vasitəsilə qiymətləndirilir.
c) İstehlak kreditləri restruktruzasiyadan 6(altı) ay müddətində ödənişlərində gecikmə müşahidə olunmadıqda nəzarət altında olan aktiv kateqoriyasınadək yaxşılaşdırıla bilər.
d) borcalanın maliyyə çətinliyi yaranması səbəbindən faiz dərəcəsinin azaldılması, ödəniş müddətinin uzaldılması və ya güzəşt müddətinin verilməsi, ödəniş qrafikinin dəyişdirilməsi,təminatın girov öhdəliyindən çıxarılması və ya daha aşağı təminatla əvəz edilməsi, əsas məbləğ və ya ona hesablanmış faiz məbləğinin azaldılması restruktruzasiya hesab edilir

76. **Nağdsız hesablaşmaların məqsədinə aid deyil**
a) Banklar tərəfindən verilən kreditlərin həcminin azaldılması
b) hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini təmin etmək, vergidən yayınmanın qarşısını almaq
c) nağdsız hesablaşmaları stimullaşdırmaq, dövriyyədəki pul kütləsinin idarə edilməsi
d) bank sisteminin inkişafını sürətləndirmək, likvidlik probleminin həllində dəstək

**77. Aşağıdakılardan hansı nağdsız hesablaşmalara aid deyil**
a) ödəniş terminalı vasitəsi ilə digər şəxsin hesabına vəsait mədaxil edilməsi
b) Sahibkar fiziki şəxsin hüquqi şəxsin (və ya hər hansı sahibkarın) bank hesabına müvafiq ödəniş məlumatlarını təyinatda qeyd etdirməklə kassadan mədaxil etməsi
c) bir şəxsin ödəmə kartı vasitəsi ilə onlayn qaydada digər şəxsin hesabına ödəniş etməsi
d) bir şəxsin internet və ya mobil bankçılıq vasitəsi ilə digər şəxsin hesabına pul köçürməsi etməsi

**78. Aşağıdakı əməliyyatlardan hansı üçün nağdsız hesablaşma məhdudiyyəti təqvim ayı ərzində 30.000 AZN deyil**
a) ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri
b) Vergi tutulmayan əməliyyatların həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 000 manatdan artıq olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri
c) topdansatış ticarət fəaliyyəti qaydasında malların təqdim edilməsini həyata keçirən şəxslər, işçi sayı 10 nəfərdən çox olan istehsal fəaliyyətini həyata keçirən şəxslər
d) Aksizli malların istehsalçıları, əmlakın icarəyə verilməsindən və royaltidən gəlir əldə edən şəxslər, Bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı mülki hüquqi xarakterli müqavilələr əsasında mövsümi işlərə cəlb edilən fiziki şəxslər üzrə gündəlik hər bir belə fiziki şəxs üçün nağd qaydada ödənilə bilən məbləğin yuxarı həddi iyirmi manat məbləğində müəyyən edilir və nağdlaşdırma limitinə daxil edilmir

**79. Yalnız nağdsız qaydada həyata keçirilməsi tələbi olmayan bəndi tapın**
a) lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi

b) vergilərin, gömrük rüsumları və yığımlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının və faizlərin
c) dövlət orqanlarına ,büdcə təşkilatlarına ödənilən xidmət haqları və digər yığımlar
d) əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətinin subyektlərinə ödənilən əmək haqqı ödənişləri, pensiya, təqaüd, maddi yardım, müavinətlər, kompensasiyalar və təzminatlar

**80. Yalnız nağdsız qaydada həyata keçirilməsi tələbi olmayan bəndi tapın**

a) "Sığorta fəaliyyəti haqqında" və "İcbari *sığortalar* haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş ödənişlər;
b) stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsi
c) əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslərin əmək haqqı ödəmələri
d) turagentlərə ödəmələr, təhsil haqlarının ödənilməsi

80A. **Aşağıdakılardan biri nağdsiz qaydada icra edilmə tələblərinə uyğun deyil**

a) komisyon və ticarət təşkilatları vasitəsilə avtomobil satışı üzrə ödənişlər,
b) pərakəndə satış qaydasında təqdim edilən malların (avtomobillər istisna olmaqla) satışı üzrə bir əməliyyat çərçivəsində on min manatdan artıq olan ödənişlər
c) tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində beş yüz manatdan artıq olan ödənişlər
d) "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənən münasibətlər üzrə müəyyən edilmiş ümumi məbləği üç min manatdan artıq olan uduşlar (mükafatlar) və oyunlarda iştirakla bağlı pul ödənişləri (pul qoyuluşları).

**81. Hansı əməliyyat nağd qaydada hesablaşma ilə həyata keçirilə bilməz**

a) dövlət satınalma müqaviləsi üzrə əldə olunan birdəfəlik vəsaitin məbləği 5000 manatdan az olduqda
b) kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsullarının qəbulu
c) əlvan və qara metal qırıntılarının qəbulu, utilizasiya məqsədləri üçün kağız, şüşə və plastik məmulatların işlənmiş şinlərin qəbulu, xam dərinin tədarükü (alışı)
d) publik hüquqi şəxslərə ödənilən xidmət haqları

**82. Sistem əhəmiyyətli bank üçün sadalananlardan biri yalnışdır**

a) AZIPS üzrə il ərzində iştirakçılar tərəfindən aparılmış əməliyyatların ümumi həcmində 20 (iyirmi) %-dən çox paya malik olan iştirakçıdır
b) Ölçü (40%), şaxələnmə (20%), əvəzolunmazlıq (20%) və mürəkkəblik (20%) indikatorları ilə qiymətləndirilir
c) Yekun sistem əhəmiyyətliliyi indeksinin nəticələri 420 baza bəndindən yüksək olan banklardır
d) Bankın maliyyə təşkilatları qarşısındakı öhdəlikləri, cəmi aktivləri, törəmə maliyyə alətlərinin (fyuçers, opsion və svop) əvvəlcədən müəyyən olunmuş qiymətlə qalıq dəyəri hesablamalarda nəzərə alınır

**83. Valyuta mövqeyinə dair sadalananlardan biri doğru deyil**

a) Sərbəst dönərli valyutalar – USD, EUR, CAD, JPY, GBP, CHF, XDR və sair
b) açıq valyuta mövqeyi limiti – açıq valyuta mövqeyinin manat ekvivalentinin bankın birinci dərəcəli kapitalına nisbəti
c) açıq valyuta mövqeyi – bankın ayrı - ayrı xarici valyutalarda, habelə bank metallarında olan ( balans + balansdankənar tələblərinin ) – (balans + balansdankənar öhdəliklərinin) məbləğlərinin fərqi
d) qapalı valyuta mövqeyi – bankın hər hansı xarici valyuta tələbləri məbləğinin onun öhdəlikləri məbləğinə bərabər olduğu valyuta mövqeyi

**84. Valyuta mövqeyinə dair sadalananlardan biri doğru deyil**

a) qapalı valyutalar – RUBL, LİRƏ, LARİ, DİRHƏM və sair

b) hedcləşdirmə – mübadilə məzənnəsinin dəyişməsindən yarana biləcək itkinin qarşısının alınması
c) qısa açıq valyuta mövqeyi – bankın hər hansı xarici valyuta öhdəlikləri məbləğinin onun tələbləri məbləğindən az olan açıq valyuta mövqeyi
d) kreditə konvertasiya əmsalları –müddət 1-ilədək 0.2, 1-ildən yuxarı 0.5

**85. Açıq valyuta mövqeyinə dair sadalananlardan biri doğru deyil**
a) limiti SDV üzrə maks. 30%, qapalı valyuta üzrə maks. 14% və bank metalları üzrə maks. 3% ola bilər.
b) hesablanarkən ehtiyat hesabına balansdan silinmiş və balansdankənar hesablarda uçotu aparılan aktivlər istisna edilir
c) hesablanarkən balans aktivləri müvafiq ehtiyatlar (adi və məqsədli ehtiyatlar) çıxılmaqla nəzərə alınır
d) hesablanarkən balansdankənar öhdəliklər xalis məbləğdə nəzərə alınır

**86. Stress-test haqqında doğru olmayanı tapın**
a) əlavə kapital tələbinin öncədən müəyyən edilməsi, effektiv fövqəladə hallar planın hazırlanması məqsədi daşıyır
b) təminatın dəyərinin azalması, bankın likvidlik çatışmazlığı, müştərinin ödəmə qabiliyyətini itirməsi şoklarının nəticələri izlənilir
c) Stress-test ən azı ildə bir dəfə bankın risklərin idarə edilməsi funksiyasını həyata keçirən struktur bölməsi tərəfindən aparılır və onun nəticələri RİK-ə və İdarə Heyətinə təqdim edilir
d) faiz dərəcələrinin və ya valyuta məzənnəsinin dəyişməsi, qanunvericilikdə dəyişikliklərin edilməsi şoklarının nəticələri izlənilir

**87. Portfel səviyyəsində kredit risklərinin idarə edilməsi tədbirlərinə aid olmayanı tapın**
a) Kredit portfelinin idarə edilməsi zamanı yaran biləcək imic problemləri
b) yeni kredit tələblərinin yaranmasının limitləşdirilməsi və ya tam məhdudlaşdırılması
c) törəmə maliyyə alətlərinin tətbiqi
d) kredit tələblərinin satışı (bank sirrini təşkil edən kredit tələbləri istisna olmaqla)

**88. Kredit risklərinin monitorinqinə aid olmayanı tapın**
a) borcalanın, kontragentin və emitentin maliyyə göstəriciləri, borc yükü və likvidliyi təhlil edilir
b) borcalanın və emitentin öhdəlik üzrə əsas məbləğ və faiz borcları ilə bağlı ödəmə davranışı izlənilir
c) iqtisadiyyatda baş verən dəyişikliklərin təminatın bazar qiymətinə təsiri ölçülür, kredit tələbinin təyinatı üzrə istifadə edilməsi yoxlanılır
d) Monitorinq nəticəsində kreditin ödənilmə müddəti və şərtləri , illik faiz dərəcəsi müəyyən olunur

**89. Aşağıdakı anlayışlardan biri doğru deyil**
a) kredit tələbi – istənilən formada pul öhdəliklərinin icrası ilə bağlı bankın tələb hüquqları
b) KTN əmsalı – kreditin ümumi məbləğinin (əsas borc) kredit üzrə təminatın bazar dəyərinə nisbəti əmsalı
c) borcalan – bankdan kredit, qarantiya (zaminlik) alan, yaxud bank qarşısında hər hansı formada pul öhdəliyi olan fiziki və ya hüquqi şəxs
d) avtomobil krediti – avtomobil nəqliyyatı vasitəsinin əldə edilməsi məqsədi ilə verilən və təminat predmeti həmin avtomobil nəqliyyatı vasitəsi olan kredit

**90. Aşağıdakılardan hansı məqbul təminat hesab edilmir**
a) banka girov qoyulmuş milli valyuta (manat), bank metalları və ya beynəlxalq nüfuzlu reytinq agentlikləri tərəfindən verilmiş minimum investisiya reytinqinə malik İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (bundan sonra – İƏİT) ölkələrinin valyutası
b) bazar dəyəri təmin etdiyi öhdəlik məbləğinin 100 (yüz ) faizindən çox olan ixtiyari təminat
c) Azərbaycan Respublikasının dövlət qiymətli kağızları, habelə Mərkəzi Bank tərəfindən buraxılmış qiymətli kağızlar, dövlət zəmanəti və ya Mərkəzi Bankın qarantiyası;
d) Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun buraxdığı təmin edilmiş qiymətli kağızlar

91. **100 000 AZN dəyərindəki kredit tələbinin təminatı haqqında deyilənlərdən biri doğru deyil (illik %10)**

a) təminatı bank hesabindaki 100 000 manat (ekvivalent avro və ABŞ dolları) məbəğindəki nağd vəsaitidirsə tələb təminatlı hesab edilir
b) təminatı bank hesabindaki 150 000 manat məbəğindəki daşınmaz əmlakdırsa tələb təminatlı hesab edilir
c) təminatı 110 000 manat məbləğində olan fərdi yaşayış evi olduqda tələb təminatlı hesab edilir
d) beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum investisiya reytinqinə malik olmayan rezident və qeyri-rezident hüquqi şəxslər tərəfindən buraxılmış qiymətli kağızlar və qarantiyalar olan kredit tələbi təminatsız hesab edilir

92. **Aşağıdakı hallardan birində şəxs digər şəxsin üzərində mühüm təsirə malik hesab olunmur**

a) Nəzarət zərfi dövlətə məxsus olan pulblik hüquqi şəxslərin icra orqanlarının rəhbərləri
b) hüquqi şəxsin kapitalının 10 (on) və ya daha çox faizini təşkil edən mühüm iştirak payına malik olduqda
c) hüquqi şəxsin mühüm iştirak payına malik şəxsi, idarəetmə orqanları və ya digər səlahiyyətli şəxsi ilə bağlanmış müqavilə əsasında və ya başqa əsasda həmin hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərmək hüququ olan şəxs olduqda, yaxud onun işlərini idarə edə bildikdə
d) hüquqi şəxsin öhdəlikləri üzrə birgə və ya subsidiar məsuliyyət daşıyan təsisçisi (iştirakçısı) olduqda

93. **Göstərilən sxemə və sadalananlara əsasən bir borcalanlar düzgün göstərilməyən bəndi seçin**




Əgər 1, 2-nin üzərində mühüm təsirə malikdirsə,
Əgər 3, 1 və 2 nin üzərində mühüm təsirə malik deyilsə,
Əgər 1 bankdan aldığı krediti 2-yə veribsə,
Əgər 1 və 2 bankdan aldığı krediti 3-ə veribsə,
Əgər 1 və 4 şərikli biznes idarə edirsə və krediti ortaq istifadə edibsə,
Əgər 1-in gəlir və xərclərinin 50%-indən çoxu 5-lə əlaqəlidirsə,
Əgər 5, 2-nin krediti üçün girov təqdim edibsə,

a) 1, 2, 3, 4, 5 bir borcalandırlar
b) Ancaq 1,2, 4
c) Ancaq 1, 4,
d) Ancaq 2, 5, 3

94. **Kredit risklərinin maksimum miqdarı haqqında deyilənlərdən biri doğru deyil**

a) Kredit risklərinin maksimum miqdarı hesablanarkən kredit tələbinin əsas məbləği müvafiq məqsədli ehtiyatlar çıxılmaqla nəzərə alınır.
b) Kredit tələbi- kredit tələbinin əsas məbləği, balansdankənar öhdəliklər, əldə edilmiş qiymətli kağızlar üzrə borc öhdəlikləri
c) Bankın iri kredit tələbinin yaranması və ya kredit tələbinin normativ həddə çatdırılması Müşahidə Şurasının qərarı ilə həyata keçirilir.
d) Bankın I dərəcəli kapitalının səviyyəsi və təminatın bazar dəyəri azaldıqda və ya itirildikdə, 3(üç) iş gününə MBNO-na məlumat verilməli və 180 (bir yüz səksən) təqvim günü ərzində normativ pozuntusu aradan qaldırılmalıdır

**95. Bankın bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üzrə kredit riskinin miqdarı aşağıdakılardan çox ola bilməz**

a) təminatlı kredit tələbi üzrə – bankın tutulmalardan sonra I dərəcəli kapitalının 25 (iyirmi beş) faizindən
b) təminatsız kredit tələbi üzrə – bankın tutulmalardan sonra I dərəcəli kapitalının 10 (on) faizindən
c) məcmu iri kredit risklərinin miqdarı üzrə – tutulmalardan sonra bankın I dərəcəli kapitalının 10 (on) mislindən
d) təminatlı və təminatsız məcmu kredit tələbləri üzrə - tutulmalardan sonra bankın I dərəcəli kapitalının 25 (iyirmi beş) faizindən

**96. Bankın bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üzrə kredit riskinin miqdarı aşağıdakılardan çox ola bilməz**

a) sistem əhəmiyyətli bankın digər sistem əhəmiyyətli bank üzrə kredit riskinin miqdarı üzrə – tutulmalardan sonra bankın I dərəcəli kapitalının 15 (on beş) faizindən
b) bir qeyri-bank maliyyə təşkilatı üzrə kredit tələbi bankın tutulmalardan sonra I dərəcəli kapitalının 10 (on) faizindən artıq olmamalıdır
c) Azərbaycan Respublikasında fəaliyyət göstərən bank, habelə beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum investisiya reytinqinə malik qeyri-rezident bankın kredit tələbi üzrə – tutulmalardan sonra bankın I dərəcəli kapitalının 20 (iyirmi) faizindən
d) qeyri-bank maliyyə təşkilatları üzrə məcmu kredit tələbləri tutulmalardan sonra I dərəcəli kapitalın 30 (otuz) faizindən artıq olmamalıdır.

**97. Kredit risklərinin maksimum miqdarının hesablanmasında aşağıdakı kredit tələblərindən biri hesablamaya daxil edilmir**

a) beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum "B-" ölkə (suveren) borc reytinqinə malik İƏİT ölkəsinin hökumətləri və mərkəzi banklarına qarşı tələblər
b) Azərbaycan Respublikasının hökumətinə və Mərkəzi Bankına qarşı tələblər
c) banklararası bir günlük əməliyyatlar üzrə tələblər (overnayt / intradey)
d) müxbir hesab qalıqları, banklararası təminatlı pul bazarı üzrə tələblər

**98. Avtomobilin bazar qiyməti 40.000 AZN dəyərindədir. Kreditin rəsmiləşdirilməsi anı üçün aşağıdakı müddəalardan hansı doğru deyil ( KTN – hesablanmasında kreditin ancaq əsas borcu nəzərə alınır)**

a) Istehsal tarixi bir il və bir ildən az olan avtomobil üçün maks. 24.000 AZN kredit verilə bilər
b) istehsal tarixindən asılı olmayaraq Avro-4 ekoloji norması tətbiq olan avtomobil üçün 40.000 AZN kredit verilə bilər
c) istehsal tarixi bir il və bir ildən çox olan avtomobil üçün maks. 8.000 AZN kredit verilə bilər
d) istehsal tarixi bir ildən az olduğu hallarda, 16.000 AZN ilkin ödəniş edildikdən sonra maks. 12.000 AZN kredit verilə bilər

**99. Aşağıdakı müddəalardan hansı doğru deyil**

a) Beynəlxalq standartlara uyğun yüksək əyar göstəricisinə qədər təmizlənmiş (affinaj edilmiş) və keyfiyyət sertifikatına malik olan qiymətli metalların külçələri girov qismində çıxış etdikdə KTN əmsalına riayyət edilməklə xarici valyutada kredit verilə bilər
b) Xarici valyutada verilən daşınmaz əmlka kreditləri üzrə KTN əmsalı 70%-dən çox ola bilməz
c) Xarici valyutada gəliri olan şəxsin kreditinin təminatı kimi eyni bankda üçüncü şəxsin adına depozit (10.000 ABŞ dolları) təqdim edildikdə maksimum 9.000 ABŞ dolları kredit verilə bilər
d) milli valyutada istehlak kreditlərinin təminatı qismində eyni bankda olan depozitlər və banka girov (saxlanc) qoyulmuş bank metalları çıxış etdikdə KTN əmsalı 90%-dən, qiymətli metallar çıxış etdikdə KTN əmsalı 70%-dən çox olmamalıdır

**100. Kredit tələbinin təmin olunmuş hissəsi normativlərin hesablanması zamanı azaldılır**

a) Əgər banka qoyulmuş girov AZN, ABŞ dolları, Avro vəsaitləri və ya bank metallarıdırsa (100%)

b) Azərbaycan Respublikasının dövlət qiymətli kağızları, Mərkəzi Bank tərəfindən buraxılmış qiymətli kağızlar, dövlət zəmanəti və ya Mərkəzi Bankın qarantiyası (100%)
c) İƏİT ölkələrində qeydə alınmış və beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum investisiya reytinqinə (həmçinin "A-" kredit reytinqinə) malik banklar tərəfindən buraxılmış qiymətli kağızlar və qarantiyalar (20%)
d) İpoteka və Kredit Zəmanət Fondunun buraxdığı təmin edilmiş qiymətli kağızlar (80%)

**101. "Azərbaycan Respublikasının milli valyutası"na aid deyildir**
a) tədavüldə olan, eləcə də tədavüldən çıxarılan tədavüldə olan pul nişanlarına dəyişdirilə bilən Azərbaycan Respublikası Mərkəzi Bankının buraxdığı kağız və metal pul nişanları
b) Azərbaycan Respublikasında banklarda və digər kredit təşkilatlarında hesablarda olan manat vəsaiti
c) Azərbaycan Respublikasından kənarda yerləşən banklarda və digər kredit təşkilatlarında hesablarda olan manat vəsaiti
d) manatla ifadə edilmiş ödəniş sənədləri (çeklər, veksellər, akkreditivlər və s), fond sərvətləri (səhmlər, istiqrazlar)

**102. "Valyuta sərvətləri"nə aid deyil**
a) xarici valyuta
b) xarici valyutada verilən kreditlər
c) xarici valyutada qiymətli kağızlar
d) qiymətli metallar, qiymətli daşlar

**103. "Rezidentlərə"' aid deyil**
a) Azərbaycan Respublikasında daimi yaşayış yeri olan, o cümlədən Azərbaycan Respublikası hüdudlarından kənarda müvəqqəti qalan fiziki şəxslər
b) Azərbaycan Respublikasında yerləşən və ölkə qanunvericiliyinə müvafiq surətdə yaradılmış, hüquqi şəxslər, hüquqi şəxs olmayan müəssisə və təşkilatlar, onların kənarda yerləşən filialları və nümayəndəlikləri
c) Azərbaycan Respublikasının ərazisində diplomatik və ya konsulluq statusu olan şəxs və onun ailə üzvləri
d) təqvim ilində üst-üstə 182 gündən artıq vaxtda həqiqətən Azərbaycan Respublikasının ərazisində olan

**104. "Qeyri-rezidentlər"ə aid deyil**
a) Azərbaycan Respublikasının ərazisində diplomatik və ya konsulluq statusu olan şəxsin nəticəsi
b) Azərbaycan Respublikası hüdudlarından kənarda daimi yaşayış yeri olan, o cümlədən Azərbaycan Respublikasında müvəqqəti qalan fiziki şəxslər
c) xarici dövlətlərin qanunvericiliyinə müvafiq surətdə yaradılmış, Azərbaycan Respublikası hüdudlarından kənarda yerləşən hüquqi şəxslər və hüquqi şəxs olmayan müəssisə və təşkilatlar
d) Azərbaycan Respublikasında yerləşən xarici diplomatik və digər rəsmi nümayəndəliklər, habelə beynəlxalq təşkilatlar, onların filialları və nümayəndəlikləri

**105. "Cari valyuta əməliyyatları"na aid deyil**
a) Azərbaycan Respublikasına və Azərbaycan Respublikasından qeyri-ticarət xarakterli köçürmələr, o cümlədən əmək haqqı, pensiya, aliment və miras üzrə məbləğlərin köçürülməsi, eləcə də digər bu kimi əməliyyatlar.
b) malların, işlərin və xidmətlərin ixracı və idxalı üzrə hesablaşmaların, eləcə də ixrac-idxal əməliyyatlarının 180 gündən artıq olmayan müddətə kreditləşdirilməsi ilə əlaqədar hesablaşmaların həyata keçirilməsi üçün xarici valyutanın Azərbaycan Respublikasına və Azərbaycan Respublikasından köçürülməsi;
c) 270 gündən artıq olmayan müddətə maliyyə kreditlərinin alınması və verilməsi;
d) əmanətlər, investisiyalar, kreditlər və kapitalın hərəkəti ilə bağlı başqa əməliyyatlar üzrə faizlərin, dividendlərin və digər gəlirlərin Azərbaycan Respublikasına və Azərbaycan Respublikasından köçürülməsi;

**106. "Kapitalın hərəkəti ilə bağlı valyuta əməliyyatları"na aid deyil**

a) birbaşa investisiyalar, yəni gəlir əldə etmək və müəssisənin idarə edilməsində iştirak etmək hüququna malik olmaq məqsədi ilə müəssisənin nizamnamə kapitalına qoyulan sərmayə
b) malların, işlərin və xidmətlərin ixracı və idxalı üzrə 270 gündən artıq müddətə ödəniş möhlətinin verilməsi və alınması
c) qiymətli kağızların əldə edilməsi, cari valyuta əməliyyatları olmayan bütün digər valyuta əməliyyatları
d) yerləşdiyi ölkənin qanunvericiliyi ilə daşınmaz əmlaka aid edilən digər əmlak üzərində mülkiyyət hüququnun, habelə daşınmaz əmlak üzərində başqa hüquqların ödənilməsi üzrə köçürmələr

**107. Valyuta tənziminə aid sadalananlardan biri doğru deyil**

a) Rezidentlər arasında milli valyuta ilə hesablaşmalar heç bir məhdudiyyət qoyulmadan aparılır
b) Valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən xarici valyutanın alqı-satqısı yalnız nağd qaydada və müştərilərin sifarişi ilə həyata keçirilir
c) rezident müəssisə və təşkilatlar əldə etdikləri xarici valyutanı öz daxili kassalarında saxlaya bilərlər
d) Azərbaycan Respublikasının valyuta ehtiyatlarının formalaşması qaydası Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir.

**108. Rezidentlərin Azərbaycan Respublikasında valyuta əməliyyatları dair sadalananlardan biri doğru deyil**

a) Hüquqi şəxs olan rezidentlər tərəfindən cari valyuta əməliyyatlarının həyata keçirilməsi üçün heç bir məhdudiyyət qoyulmur.
b) Hüquqi şəxs olan rezidentlər valyuta sərvətlərini köçürmə yolu ilə Azərbaycan Respublikasına gətirmək və Azərbaycan Respublikasından çıxarmaq, habelə gömrük prosedurlarına əməl etməklə nağd şəkildə ölkəyə gətirmək və ölkədən çıxarmaq hüququna malikdirlər.
c) Fiziki şəxs olan rezidentlər əvvəllər Azərbaycan Respublikasına köçürülmüş valyuta sərvətlərin Azərbaycan Respublikasından maneəsiz köçürmək hüququna malikdirlər.
d) Fiziki şəxs olan rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş 50 (əlli) min ABŞ dolları ekvivalentinədək və daha çox valyuta sərvətlərini gömrük prosedurlarına və xüsusi qaydalara əməl etməklə Azərbaycan Respublikasından nağd şəkildə çıxara və köçürə bilərlər.

**109. Qeyri-rezidentlərin Azərbaycan Respublikasında valyuta əməliyyatlarına dair sadalananlardan biri doğru deyil**

a) Qeyri-rezidentlər Azərbaycan Respublikasına əvvəllər köçürülmüş valyuta sərvətlərini Azərbaycan Respublikasından maneəsiz köçürmək hüququna malikdirlər.
b) Qeyri-rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş valyuta sərvətlərindən 50 (əlli) min ABŞ dolları ekvivalentindən artıq məbləğdə valyuta sərvətlərini Azərbaycan Respublikasından kənara köçürdükdə, valyuta gətirilən ölkənin müvafiq bank və ya digər kredit təşkilatı tərəfindən bu vəsaitin ona nağd şəkildə verilməsini təsdiq edən arayış təqdim etməlidirlər
c) Qeyri-rezidentlər valyuta sərvətlərini manatla almaq və satmaq hüququna malikdirlər
d) Qeyri-rezident hüquqi şəxslər xarici valyutanı ölkə daxilində ödəniş vasitəsi kimi işlədə bilər

**110. Sadalananlardan biri doğru deyil**

a) idxal olunan xidmətlər – qeyri-rezidentlər tərəfindən Azərbaycan Respublikasının ərazisində göstərilən xidmətlər və görülən işlər, həmçinin rezidentlərin və qeyri-rezidentlərin xeyrinə ölkə xaricində göstərilən xidmətlər və görülən işlər
b) Rezident və qeyri-rezident hüquqi şəxslər tərəfindən bank hesabı açılmadan xarici valyutada təqvim ayı ərzində isə 10000 (on min) ABŞ dolları ekvivalentinədək məbləğdə köçürə bilər
c) Azərbaycan Respublikasının Mərkəzi Bankı valyuta tənzimlənməsinin əsas orqanıdır
d) Azərbaycan Respublikasının əsas valyuta nəzarəti orqanı Azərbaycan Respublikasının Mərkəzi Bankı, maliyyə bazarlarına nəzarət orqanı və müvafiq icra hakimiyyəti orqanıdır, valyuta nəzarəti agentləri isə müvəkkil banklardır

**111. Azərbaycan Respublikasından kənara xarici valyutada köçürmələrə dair sadalananlardan biri doğru deyil**

a) rezident və qeyri-rezident fiziki şəxsin əvvəllər Azərbaycan Respublikasına nağd şəkildə gətirilmiş və ya həmin fiziki şəxsin əvvəllər xaricdən bank hesabına köçürülmüş, o cümlədən bank hesabı açılmadan pul köçürməsi sistemi vasitəsi ilə həmin şəxsin adına xaricdən daxil olmuş 100 000 ABŞ dolları məbləğindəki vəsaiti müvafiq mədaxil sənədləri əsasında köçürə bilər
b) rezident fiziki şəxsin yaxın qohumlarına bank hesabı vasitəsi ilə qohumluğu təsdiq edən sənədlər əsasında təqvim ayı ərzində (birdəfəlik və ya hissə-hissə) 10 000 (on min) ABŞ dolları ekvivalentinədək məbləğdə valyuta köçürə bilər
c) rezident fiziki şəxs öz hesabına hesabin özünə məxsus olmasını təsdiq edən sənədlər əsasında şəxsi məqsədlər üçün məhdudiyyətsiz pul köçürə bilər
d) Rezident və qeyri-rezident fiziki şəxs ailə üzvlərinə Azərbaycan Respublikasından kənara bank hesabı açmadan xarici valyuta vəsaitlərini bir əməliyyat günü ərzində 1000 (bir min) ABŞ dolları, təqvim ayı ərzində isə 10000 (on min) ABŞ dolları ekvivalentinədək məbləğdə köçürə bilər.

**112. Rezidentlər tərəfindən qeyri-rezidentlərə dividendlərin ödənilməsi ilə bağlı köçürmələr zamanı hansı sənədin təqdim edilməsi zəruri deyil**

a) Dövlət reyestrindən çıxarış, nizamnamə
b) Dividentin ödənilməsində dair təsisçilərin qərarı (protokol)
c) Dividentin ödənilməsinə dair ödəmə tapşırığı
d) vergi agentlərinin müvafiq vergilərin ödənilməsini təsdiq edən arayışı, yaxud vergilərin ödənilməsindən azad olunma barədə müvafiq təsdiqedici sənəd

**113. Ödəniş malların idxalı və ya göstərilən xidmətlərlə əlaqədar olduqda köçürmə üçün banka hansı sənədin təqdim edilməsi zəruri deyil**

a) Idxal (xidmət) müqaviləsi və ya ödənişin təyinatını, məbləğini və idxal olunan (xidmətlər) mallar barədə məlumatı özündə əks etdirən bildiriş, hesab-faktura və ya digər sənədlər
b) malların idxalını təsdiq edən gömrük bəyannaməsinin əsli
c) Gömrük ödəmələri üzrə borcunun olmamasına dair arayış
d) xidmətlərin göstərilməsini təsdiq edən sənədlər (xidmətlərin qəbul edilməsini təsdiqləyən akt)

**114. Qabaqcadan (avans) ödəniş aparıldıqda (biri doğru deyil)**

a) banka ödənişin təyinatını, şərtlərini və məbləğini əks etdirən sənəd təqdim edilir
b) Avans tələb olunan vaxtda bağlanmadıqda (bəyan edilmədikdə) hüquqi şəxslər inzibati xətanın obyekti olmuş valyuta vəsaiti məbləğinin otuz faizindən qırx faizinədək məbləğdə cərimə edilir
c) ödənişin aparıldığı gündən 2(iki) il müddətində malların ölkəyə idxalını təsdiq edən gömrük bəyannaməsi və ya idxal olunan xidmətlərin göstərilməsini təsdiq edən sənəd banka təqdim olunmalıdır (məbləğin qalıq dəyəri 10 000 (on min) ABŞ dolları ekvivalenti məbləğindən çox olduqda)
d) Həmin müddət ərzində mallar idxal edilmədikdə, xidmətlər göstərilmədikdə və ya qabaqcadan ödənilmiş məbləğ geri qaytarılmadıqda bank qabaqcadan ödəniş əməliyyatına dair bütün sənədləri 5 (beş) iş günü ərzində Azərbaycan Respublikasının MBNO-na təqdim edir

**115. Azərbaycan Respublikasından kənara valyuta köçürmələrinə dair qeyd edilənlərdən biri doğru deyil**

a) malların respublikanın gömrük ərazisinə gətirilmədən üçüncü tərəfə vasitəçilik vasitəsi ilə təqdim edilməsi üzrə köçürmələr vasitəçinin müvəkkil bankdakı hesabına mal alan tərəfindən əvvəlcədən köçürülən məbləğdən artıq olmamalı və vasitəçilik fəaliyyətini təsdiq edən müvafiq müqavilə banka təqdim edilməlidir
b) icra olunmayan ixrac müqavilələri üzrə vəsaitlərin geri qaytarılması ödənişin həmin şəxslərin hesablarına qabaqcadan daxil olmasını təsdiq edən bank sənədi təqdim olunmaqla həyata keçirilir
c) rezidentlərin və qeyri-rezidentlərin məhkəmə, arbitraj, notariat xərcləri, dövlət rüsumları, digər icbari ödənişləri, təqaüd, pensiya, aliment və oxşar ödənişlərin aparılması, qeyri-rezidentin miras üzrə məbləğlərinin köçürülməsi Notraiusların xüsusi arayışı əsasında həyata keçirilir
d) xaricdən cəlb edilmiş kreditlər və digər borc öhdəlikləri, həmin borc öhdəlikləri üzrə faiz, komisyon haqlar və cərimələrin ödənilməsinə yönəldilmiş köçürmələr üçün kreditin alınmasını təsdiq edən

müqavilə və ya digər borc öhdəliyinin yaranmasını təsdiq edən sənəd banka təqdim edilməklə həyata keçirilir

**116. Azərbaycan Respublikasından kənara valyuta köçürmələrinə dair qeyd edilənlərdən biri doğru deyil**

a) fiziki şəxslər tərəfindən xaricə səfərlə bağlı özlərinin nəqliyyat və otel (gecələmə) xərclərinin ödənilməsi elektron kommersiya bildirişi əsasında köçürülə bilməz
b) qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı investisiyaları ilə bağlı əldə etdikləri gəlirlər və başqa məbləğlər, o cümlədən kompensasiyalar və zərərin ödənilməsi məbləğləri ilə bağlı köçürmələr vergilərin ödənilməsini təsdiq edən arayışı, yaxud vergilərin ödənilməsindən azad olunma barədə müvafiq təsdiqedici sənəd banka təqdim edilməklə həyata keçirilir
c) rezidentlər və qeyri-rezidentlər tərəfindən əmək müqaviləsi ilə xaricdən işə cəlb edilmiş qeyri-rezidentlərə əmək haqqının ödənilməsi əmək haqqının ödənilməsi şərtləri və məbləğini əks etdirən müqavilə yaxud ödəniş günü üçün Elektron Hökumət Portalından onun iş yeri və əmək haqqısı barədə arayış əsasında da aparıla bilər
d) rezidentlər və qeyri-rezidentlər tərəfindən özlərinin və ya digər fiziki şəxsin (şəxslərin) təhsil və müalicə haqlarının ödənilməsi (təhsil haqlarının ödənilməsi zamanı təhsil müəssisəsinin ödənişin təyinatını, məbləğini və bank hesabının nömrəsini təsdiqləyən məktubu hesab-fakturanı əvəz edə bilər)

**117. Aşağıdakı ölkə xaricinə valyuta köçürməsindən biri ancaq elektron kommersiya bildirişi əsasında icra edilə bilməz**

a) beynəlxalq təşkilatlarda, konfranslarda, sərgilərdə və digər tədbirlərdə iştirak haqlarının ödənilməsi
b) turizm fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən turistlərin səyahət xərclərinin ödənilməsi
c) müəlliflik hüququndan, patentdən istifadə haqlarının və françayzinqin ödənilməsi, xarici nəşr məhsullarına, kitabxana, məlumat bazalarına və bülletenlərə abunə haqlarının və ya elanların yerləşdirilməsi haqlarının ödənilməsi
d) idxal olunan malların dəyərinin ödənilməsi üzrə rezidentlər və qeyri-rezidentlər tərəfindən köçürülən vəsaitlər

**118. İxrac əməliyyatlarına dair sadalananlardan biri doğru deyil**

a) İxrac olunan mallar gömrük orqanlarına bəyan edilməlidir
b) Müvəkkil banklar şəxslərin aidiyyəti hesablarına ixrac müqavilələri üzrə xarici valyutanın daxil olması barədə məlumatı MBNO tərəfindən müəyyən edilmiş formada və qaydada vəsait daxil olduğu gündən 5 (beş) iş günü ərzində MBNO-ya ötürürlər.
c) Konsiqnasiya yolu ilə ixrac əməliyyatları xarici şəxslərlə bağlanmış müqaviləyə əsasən ixrac olunmuş malların (işlərin, xidmətlərin) müqabilində vəsaitlərin müəyyən edilmiş müddət ərzində ixracatçıya ödənilməsini nəzərdə tutur.
d) Hüquqi və fiziki şəxslər konsiqnasiya yolu ilə ixrac etdikləri malların (işlərin, xidmətlərin) müqabilində vəsaitlərin onların bəyan olunduğu gündən 180 (yüz səksən) gün ərzində Azərbaycan Respublikasındakı müvəkkil bankda olan hesablarına köçürülməsini təmin etməlidirlər.

**119. Aşağıdakılardan hansı bankın aktivlərinə aid deyil**

a) bank tərəfindən verilən kreditlər, geri qaytarılmaq şərti ilə yerləşdirilmiş digər aktivlər
b) bank tərəfindən qabaqcadan ödənilmiş vəsait, bank işində istifadə olunmayan aktivlər
c) müştərilərin tələbli və müddətli əmanətləri
d) hüquqi şəxslərin kapitalında iştirak payına vəsait qoyuluşları və balansdankənar öhdəliklər

**120. Aşağıdakı anlayışlardan birinin izahi düzgün deyil**

a) biznes krediti - hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə sahibkarlıq məqsədilə verilən kredit
b) istehlak krediti - sahibkarlıq və ya peşə fəaliyyəti, habelə daşınmaz əmlakın əldə edilməsi və tikintisi ilə bağlı olmayan məqsədlər üçün fiziki şəxslərə verilən kredit

c) restrukturizasiya olunmuş aktiv - borcalanın maliyyə çətinliyi yaranması səbəbindən borc öhdəliyinin icrasını təmin etmək məqsədi ilə müqavilə şərtləri dəyişdirilmiş və ya yeni öhdəlik kimi rəsmiləşdirilmiş borc öhdəliyi
d) xalis bazar qiyməti – malın (işin, xidmətin) tələblə təklifin qarşılıqlı təsiri nəticəsində təşəkkül tapan qiyməti

**121. Kreditin əsas vəya ona hesablanmış faiz borcu ödəniş qrafiki üzrə ödənilməzsə gecikmə gününə dair yazılanlardan biri doğru deyil**
a) vaxtı keçmiş kredit – gecikmə günü > 30 (biznes, istehlak)
b) qeyri-işlək kredit - gecikmə günü > 90 (biznes, istehlak)
c) Restruktruzasiya olunmuş kredit – gecikmə günü dondurulmuş kredit
d) ümidsiz kredit - gecikmə günü > 360 (təminatlı), > 270 (təminatsız), >150 (istehlak kreditləri), >60 (b anklararası tələblər)

**122. 24 ay müddətin bağlanmış 10.000 AZN məbləğli kredit xətti üzrə aylıq ödəniş göstərilməyibsə borc yükünün hesablanması zamanı aylıq ödəniş hansı qaydada nəzərə alınacaq**
a) 10.000 *(vurulsun) kreditin illik faiz dərəcəsi / (bölünsün) 24
b) 10.000 , 24 ay müddətinə annuitet qrafikə uyğun aylıq ödəniş məbləği qədər
c) 10.000 * kreditin illik faiz dərəcəsi / 12
d) 10.000 / 24

**123. Aşağıdakılardan biri fiziki şəxs olan borcalanın aylıq gəlirini təsdiq edən sənəd hesab edilmir**
a) ölkəxaricii sabit gəlirlərini təsdiq edən hesabdan çıxarışlar
b) əmək haqqı barədə iş yerindən arayış
c) sosial müdafiə orqanları tərəfindən borcalana pensiya və müavinətlərin ödənilməsi haqqında arayış
d) borcalanın mövcud depozit hesabları üzrə faiz gəlirlərini təsdiq edən bank arayışı

**124. Aşağıdakı müddəalardan hansı yalnışdır**
a) tələbələrə kredit verilə bilər
b) borcalan (gəliri muzdlu işlə əlaqədar olan) ən azı son 6 (altı) ay üzrə aylıq gəlirlərini təsdiq edən sənəd təqdim etməlidir
c) təminatlı aktiv - təminatı məqbul təminat olduqda onun bazar dəyəri təmin etdiyi öhdəlik məbləğinin 100 (yüz) faizindən, təminat məqbul təminat olmadıqda isə 150 (yüz əlli) faizindən az olmayan aktiv
d) Məqbul təminat bankın daxili qaydalarına əsasən müəyyən edilir

**125. Aşağıdakı müddəalardan hansı yalnışdır**
a) Təminatından asılı olmayaraq bütün aktivlər 240 gecikmə günündən sonra təhlükəli aktiv kimi təsnifləşdirilir
b) İstehlak kreditlərinin təsnifləşdirilməsi gecikmə müddəti üzrə  həyata keçirilir.
c) Aktivlərin təsnifləşdirilməsi gecikmə müddəti və keyfiyyət meyarları üzrə ayrılıqda həyata keçirilir.
d) Aktivlər standart və qeyri-standart aktivlərə bölünür. Standart aktivlərə qənaətbəxş və nəzarət altında olan aktivlər, qeyri-standart aktivlərə isə qeyri-qənaətbəxş, təhlükəli və ümidsiz aktivlər aiddir.

**126. Aktivlərin keyfiyyət meyarlarına görə təsnifləşdirilməsinə dair sadalananlardan biri doğru deyil**
a) borcalan müflis elan olunduqda və ya sahibkarlıq fəaliyyətinə xitam verildikdə təhlükəli aktiv kimi
b) əsas məbləğ və faiz ödənişləri borcalanın maliyyə vəziyyətinə tam uyğun olduqda qənaətbəxş aktiv kimi
c) monitorinq nəticəsində balans hesabatı, gəlir və xərc hesabatı təqdim edilmədikdə nəzarət altında olan aktiv kimi
d) kreditin təyinatı üzrə istifadə olunmasını təsdiq edən sənədlər təqdim edilmədikdə qeyri-qənaətbəxş aktiv kimi təsnifləşdirilir

**127. Faiz borcu 140 gün gecikən biznes krediti üzrə sadalananlardan biri doğru deyil**

a) qeyri-qənaətbəxş aktiv kimi təsnifləşdiriləcəkdir
b) hesablanmış faizlər və əsas borc üzrə 25% ehtiyyat yaradılacaqdır
c) borcalanın iflas prosesinə başlanılıbsa təhlükəli aktiv kimi təsnifləşdiriləcəkdir
d) borcalan vəfat edibsə ümidsiz aktiv kimi təsnifləşdiriləcəkdir

**128. Biznes kreditlərinin gecikmə günü üzrı təsnifləşdirilməsin dair sadalananlardan biri doğru deyil**

a) Təminatlı olub-olmamasından asılı olmayaraq 181 gününədək eyni kateqoriyada təsnifləşdirilir
b) Təminat bank hesabinda bazar dəyəri öhdəliyin 100% həcmində manat vəsaiti olarsa, 241-360 gün müddətində təhlükəli aktiv kimi təsnifləşdiriləcək
c) Təminat bank hesabinda bazar dəyəri öhdəliyin 100% həcmində ABŞ dolları vəsaiti və ya 120% həcmində qiymətli metallar olarsa 241-360 gün müddətində təhlükəli aktiv kimi təsnifləşdiriləcək
d) Təminat bazar dəyəri öhdəliyin 160% həcmində olan daşınmaz əmlak olarsa, 360 gün sonra ümidsiz aktiv kimi təsnifləşdiriləcək

**129. Aşağıdakılardan biri məqbul təminat hesab edilmir**

a) Azərbaycan Respublikasının dövlət qiymətli kağızları, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən buraxılmış qiymətli kağızlar, dövlət zəmanəti və ya Mərkəzi Bankın qarantiyası
b) beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş minimum investisiya reytinqinə malik çoxtərəfli inkişaf bankları tərəfindən buraxılmış qiymətli kağızlar və qarantiyalar
c) Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun buraxdığı təmin edilmiş qiymətli kağızlar
d) Fərdi yaşayış evləri, mənzil, daşınar əmlak və sair

**130. Aşağıda sadalananlardan biri doğru deyil**

a) Təminatından asılı olmayaraq ümidsiz aktivin bazar dəyərinin 100% məbləğində ehtiyat yaradılır
b) Ehtiyatlar iki kateqoriyaya bölünür: adi ehtiyyatlar və məqsədli ehtiyyatlar
c) Qeyri-qənaətbəxş, təhlükəli və ümidsiz aktivlər üçün ehtiyyat normaları aktivlərin müxtəlif növləri üzrə eynidir
d) Ehtiyatlar aktivin ümumi məbləği üzrə Azərbaycan Respublikasının milli valyutası ilə bankın xərcləri hesabına yaradılır

**131. Aşağıda sadalananlardan biri doğru deyil**

a) Ehtiyatlar hesabına balansdan silinmiş bütün aktivlər balansdankənar hesablarda (subhesablarda) uçota alınır və ən azı 5 (beş) il ərzində bu hesablarda uçotu aparılır
b) gecikmə günləri üzrə ən azı ayda bir dəfə, keyfiyyət meyarları üzrə ən azı ildə birdəfə qiymətləndirmə aparılır
c) Ehtiyatlar "bölüşdürülməmiş mənfəət" və kapitala aid olan digər maddələr hesabına yaradıla bilər
d) I dərəcəli kapitalın 3 (üç) faizindən yuxarı olan borcalanlar üzrə ən azı 6 (altı) aydan bir keyfiyyət meyarı üzrə qiymətləndirmə aparılır

**132. Aşağıda sadalananlardan biri doğru deyil**

a) hər hansı aktiv üçün yaradılan məqsədli ehtiyatın məbləği həmin aktivin məbləğindən çıxılır
b) ehtiyatlar hesabında debet qalığı xərclər hesabina yaradıla bilər
c) Aktiv üçün yaradılan adi ehtiyatın məbləği ikinci dərəcəli kapitaldaki hesablarda əks etdirilir
d) Mərkəzi Bankdakı müxbir hesabın qalığı üçün ehtiyyat yaradılmır

**133. Aşağıdakı halların birində istehlak kreditləri yerləşdirildiyi anda qeyri-qənaətbəxş aktiv kimi təsnifləşdirilməyə bilər**

a) borcalanın son 6 (altı) ay ərzində 30 gündən çox gecikmiş krediti olduqda
b) borcalanin gəliri - borc yükü< ölkə üzrə yaşayış minimumundan azdırsa (190 AZN, 2020)
c) xarici valyutada istehlak kreditlərinin təminatı qismində eyni bankda xarici valyutada olan depozitlər və ya banka girov qoyulmuş bank metalları çıxış etdikdə kreditin təminata olan nisbəti 90%-dək olduqda

d) milli valyutada istehlak kreditlərinin təminatı qismində eyni bankda olan depozitlər və banka girov qoyulmuş bank metalları çıxış etdikdə KTN əmsalı 90%-dən, qiymətli metallar çıxış etdikdə KTN əmsalı 70% çox olmadıqda

**134. Restrukturizasiya olunduqdan sonra aktivin təsnifat qrupunun yaxşılaşdırılmasına dair qeyd edilənlərdən biri doğru deyil**

a) Istehlak kreditləri 12 ay müddətində gecikmə ilə ödənilməsə qənaətbəxş aktiv kimi təsnifləşdirilə bilər
b) Restrukturizasiya olunduqdan sonra təsnifləşdirmədə aktivin keyfiyyət meyarı da nəzərə alınmalıdır
c) altı ay müddətində ödənişlərində gecikmə müşahidə olunmadıqda (əgər ödəniş aylıq olmalıdırsa)
d) restrukturizasiyası anında onun restrukturizasiyaya qədərki təsnifat kateqoriyası yaxşılaşdırıla bilməz

**135. Aşağıda sadalananlardan biri doğru deyil**

a) Yüksək keyfiyyətli qiymətli kağızlara investisiya qoyuluşu aparıldıqda onlar üçün ehtiyat yaradılmır, orta keyfiyyətli qiymətli kağızlar standart qaydalara uyğun, aşağı keyfiyyətli aktivlərə isə ən yaxşı halda qeyri-qənaətbəxş aktiv kimi ehtiyyat yaradılır.
b) bankda emitentin maliyyə vəziyyəti barədə kifayət qədər məlumat olmayan qiymətli kağızlar orta keyfiyyətli hesab edilir
c) Qiymətli kağızlar təsnifləşdirmə məqsədləri üçün yüksək, orta və aşağı keyfiyyətli qiymətli kağızlar qruplarına bölünür
d) Hüquqi şəxslərin kapitalında iştirak payı qənaətbəxş aktiv kimi təsnifləşdirildikdə ehtiyat yaradılmır.

**136. Ödənilməmiş borclar müqabilində bankın balansına götürülmüş əmlaka dair qeyd edilənlərdən biri doğru deyil**

a) daşınmaz əmlak, habelə bankın əvvəllər istifadə etdiyi əsas vəsaitlər istifadə olunmadığı andan 2 (iki) il sonra, daşınar əmlak o cümlədən bank işində istifadə olunmayan daşınar əmlak və qiymətli kağızlar balansa götürüldüyü andan 120 gün sonra balansdan silinir və balansdankənar hesabda uçota alınır
b) daşınar və daşınmaz əmlak balansa götürüldüyü anda qeyri-qənaətbəxş aktiv kimi təsnifləşdirilir
c) daşınmaz əmlakın bazar qiyməti balans dəyərindən az olduqda o, bazar qiyməti məbləğində ən azı qeyri-qənaətbəxş aktiv kimi, fərq isə ümidsiz aktiv kimi təsnifləşdirilir
d) daşınar əmlakın bazar qiyməti balans dəyərindən çox olduqda o, 120 gün ərzində balans dəyəri məbləğində ən azı qeyri-qənaətbəxş aktiv kimi təsnifləşdirilir

**137. Aşağıda sadalananlardan biri doğru deyil**

a) bank tərəfindən verilən qarantiya (zaminlik) və akkreditivlər balans hesablarına keçirildiyi andan ən azı nəzarət altında olan aktivlər kimi təsnifləşdirilir
b) Aktivlər üzrə ehtiyatların yaradılmasında nəzərə alınması məqsədilə aktivlər üzrə təminatlar 5 (beş) qrupa bölünür
c) Daşınmaz əmlak təminatlı aktiv üzrə təhlükəli aktiv kimi ehtiyat ayiran zaman əmlakın xalis bazar qiymətinin 30%-i nəzərə alınır
d) Təminatın reallaşdırılması aktiv ümidsiz aktiv kateqoriyasına daxil edildikdən sonrakı 3 (üç) il ərzində tamamlanmadıqda həmin aktivlər üzrə 100% həcmində ehtiyat yaradılır.

**138. Ümidsiz aktivlər üzrə ehtiyatların yaradılması üçün təminat qruplarına dair qeyd edilənlərdən biri doğru deyil ( likvid dəyər əmsalı (i) ,təminatın xalis bazar qiyməti (L), aktiv (A), ehtiyyat (E),** E = A –Lx i**)**

a) 1-ci qrup-depozit hesabındakı milli və sərbəst dönərli xarici valyuta (xüsusi şərtli müqavilə əsasında), bank metalları və sair, 0%
b) 2-ci qrup – qiymətli metallar, ölkə daxili bankların qarantiyaları və sair, 40%
c) 3-cü qrup – fərdi yaşayış evi, mənzil, torpaq, qeyri yaşayış binası , 30%
d) 4-cü qrup – avtomobil nəqliyyat vasitəsi, 25%

**139. Aşağıdakı anlayışlardan biri doğru deyil**

a) məcmu kapital - prudensial hesabatlıq məqsədləri üçün nəzərdə tutulmuş I dərəcəli (əsas) və II dərəcəli (əlavə) kapitala daxil olan komponentlərin (elementlərin) cəmi və onlardan tutulmaların fərqi
b) risk dərəcəsi üzrə ölçülmüş aktivlər - tutulmalar çıxıldıqdan sonra balans aktivlərinin və balansdankənar öhdəliklərin hər birinin risk dərəcəsinə əsasən qiymətləndirilmiş dəyəri
c) kapitalın adekvatlıq əmsalları - I dərəcəli kapitalın və məcmu kapitalın ayrılıqda aktivlərə nisbəti
d) kreditə konvertasiya əmsalı - bankın balansdankənar öhdəliklərinin balans aktivlərinin dəyərinə çevrilməsinə imkan verən göstərici

**140. Kapitalın hibrid elementlərinə aid deyil**
a) balansdankənar öhdəliklər
b) kumulyativ müddətsiz imtiyazlı səhmlər
c) qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər
d) subordinasiya borc öhdəlikləri

**141. Biri subordinasiya borc öhdəliklərinin xüsusiyyətini əks etdirmir**
a) bankın aktivlərinin girovu ilə təmin edilməməlidir, mülkiyyətçisinin tələbi ilə geri alına bilməz
b) son ödəmə müddəti başa çatana kimi bu öhdəlik üzrə ödəmə baş tutmadığı təqdirdə bankı müflis elan etmək və ya ləğv etmək hüququ vermir
c) bank ləğv edilərkən onların ödənilməsi əmanətçilərin və bankın digər kreditorlarının tələbləri tam ödənildikdən sonra icra olunur
d) ödəniş müddətinin başa çatmasına 5 (beş) il qaldıqda qalıq müddətinin birinci ilinin əvvəlindən başlayaraq hər il 10 (on) faiz azaldılmaqla nəzərə alınır

**142. Aşağıdakılardan biri qeyri-maddi aktiv hesab edilmir**
a) bank əməliyyat sistemləri (proqram təminatı)
b) vergi hesablaşmaları  üzrə yaranmış aktivlər
c) müəllif hüquqları, patent, təbii ehtiyatlardan istifadə hüquqları, lisenziyalar
d) ticarət və əmtəə nişanları

**143. Aşağıdakı anlayışlardan biri doğru deyil**
a) balansdankənar öhdəliklər - qarantiyalar, zaminlik və oxşar şərti öhdəliklər, kredit alətləri və akkreditivlər;
b) istehlak krediti - sahibkarlıq və ya peşə fəaliyyəti, habelə daşınmaz əmlakın əldə edilməsi və tikintisi ilə bağlı olmayan məqsədlər üçün fiziki şəxslərə verilən kredit;
c) biznes krediti - hüquqi şəxslərə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə şəxsi məqsədlər üçüm verilən kredit;
d) bank aksepti - qısa müddətli borc öhdəliklərininin icrasına bankın razılığını və ya zəmanətini nəzərdə tutan sənəd;

**144. Aşağıdakılardan biri məcmu kapital və ona dair normativlərin təyin olunmasının məqsədi deyil**
a) bankın biznes strategiyasının dəstəklənməsi
b) daxili və xarici mühitdə baş verən əlverişsiz dəyişikliklər zamanı bankın maliyyə dayanıqlığının təmin edilməsi
c) Kreditlərin faiz dərəcəsinin aşağı salınması
d) əmanətçilərin və potensial investorların bank sisteminə etimadının artırılması

**145. Sadalananlardan bir doğru deyil**
a) kapitalın hibrid elementlərinin məbləği 50 (əlli) milyondursa, I dərəcəli kapital (aparılan “tutulmalar”dan sonra)  minimum  50 (əlli) milyon olmalidir
b) Yeni yaradılan banklar üçün nizamnamə kapitalının minimum miqdarı 50 (əlli) milyon manat məbləğində olmalıdır (manatla ödənilən pul vəsaiti ilə formalaşdırılır).
c) Bankın məcmu kapitalının minimum miqdarı 50 (əlli) milyon manat məbləğində olmalıdır.
d) Məcmu kapitala yalnız pul vəsaiti ilə ödənilən maliyyə alətləri daxil edilir

**146. I dərəcəli kapitala aşağıdakı komponentlərdən biri daxil deyil**

a) dövriyyəyə buraxılıb tam ödənilmiş adi səhmlər
b) dövriyyəyə buraxılıb tam ödənilmiş müddətsiz imtiyazlı səhmlər
c) kapital artıqlığı
d) cari ilin zərəri çıxılmaqla bütün əvvəlki illərin yığılıb bölüşdürülməmiş mənfəəti

**147. II dərəcəli kapitala aşağıdakı komponentlərdən biri daxil deyil**
a) kapitalın hibrid elementləri (qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər istisna olmaqla)
b) ümumi ehtiyatlar
c) cari ilin mənfəəti
d) kapital ehtiyatları

**148. kapitalın hibrid elementləri II dərəcəli bank kapitalına daxil edilməsi üçün**
a) bank ləğv edildikdə bu alətlər üzrə öhdəliklərin ödənilməsinin bütün digər kreditorların tələbləri tam ödənildikdən sonra icra olunması şərti olmalıdır
b) bankın bu alətlər üzrə faiz ödənişlərini təxirə salmaq hüququ olmalıdır
c) bu alətlər üzrə öhdəliklərin bankın öz aktivləri təmin olunmalıdır
d) kreditorların tələbi ilə geri çağırılmasının qeyri-mümkünlüyü şərti olmalıdır

**149. Sadalananlardan biri doğru deyil**
a) Məcmu kapital=I dərəcəli kapital (-ondan tutulmalar)+ II dərəcəli kapital (- ondan tutulmalar)
b) II dərəcəli kapital ≤ I dərəcəli kapital
c) I dərəcəli kapitaldan bütün "qeyri-maddi" aktivlərin xalis dəyəri (amortizasiyası nəzərə alınmaqla) və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ilə müəyyən olunmuş təxirə salınmış vergi aktivlərinin məbləği əmsallar hesablanmazdan əvvəl çıxılır
d) məcmu kapitaldan bankın törəmə cəmiyyətlərinə, habelə digər hüquqi şəxslərin kapitalına vəsait qoyuluşları (bu investisiyalar üçün yaradılmış "məqsədli" ehtiyatlar istisna olmaqla) əmsallar hesablanmazdan əvvəl çıxılır

**150. Balans aktivləri üçün müəyyən edilmiş risk qruplarına (növündən, xüsusiyyətindən, habelə öhdəliyin təminatından asılı olaraq) daxil deyil (%)**
a) 180 (yüz səksən) , 200 (iki yüz), 250 (iki yüz əlli)
b) 0 (sıfır), 20 (iyirmi)
c) 75 (yetmiş beş), 100 (yüz), 120 (yüz iyirmi), 150 (yüz əlli)
d) 35 (otuz beş), 50 (əlli)

151. **Kapitalın adekvatlıq əmsallarına qeyd edilənlərdən biri doğru deyil (Sistem əhəmiyyətli banklar istisna olmaqla)**
a) Adekvatlı əmsalı hesablanan zamanə kredit, bazar və əməliyyat riski üzrə ölçülmüş aktivlər cəmlənir
b) I dərəcəli kapitalın adekvatlıq əmsalı 5 (beş) faizdən az olmamalıdır
c) məcmu kapitalın adekvatlıq əmsalı 10 (on) faizdən az olmamalıdır
d) Yüksək faizli risk qrupuna aid aktivlər artdıqca adekvatlıq əmsalı artır

**152. Aşağıda sadalananlardan biri doğru deyil**
a) I dərəcəli kapitalın adekvatlıq əmsalı ilə leverec əmsalı arasındakı əsas fərq aktivlərin risk qruplarına görə təsnifləşdirilməsidir
b) Sistem əhəmiyyətli banklar 5(beş), digər banklar leverec əmsalını 4 (dörd) faizdən az olmayan səviyyədə saxlamalıdır
c) bankın kassalarında, xəzinələrində, şöbə və filiallarında, bankomatlarda və digər ödəniş terminallarında olan vəsaiti kreditə çevirdikcə adekvatlıq əmsalı yuxarı qalxır
d) xarici valyutada gəliri olmayan borcalanlara xarici valyutada verilmiş biznes (istehlak) kreditləri məbləği artdıqca adekvatlıq əmsalı aşağı düşür

**153. Əsas makroiqtisadi göstəricilərdən biri doğru deyil (Mərkəzi Bankın statistik bülleteninə əsasən)**
a) Ümum daxili məhsul 2018-ci ilin sonunda 79.8 milyard manat olmuşdur
b) Ölkə üzrə yaşayış minimumu: 2018-173 AZN, 2019-180 AZN, 2020 – 190 AZN
c) İqtisadiyyata kredit qoyuluşları 2018-ci ilin sonuna 13.02 milyard manat olmuşdur
d) Kredit təşkilatlarında yerləşdirilmiş depozitlər 2018-ci ilin sonuna 11,87 milyard manat olmuşdur

**154. Pul, kredit və makroiqtisadi göstəricilərdən biri doğru deyil (Mərkəzi Bankın statistik bülleteninə əsasən)**

a) Nominal orta aylıq əmək haqqı 2018-ci ilin sonuna 544.1 AZN olmuşdur
b) 2018-ci ilin sonuna fiziki şəxslərin banklardakı əmanətləri 8.38 milyard manat olmuşdur
c) Mərkəzi Bankın məcburi ehtiyyat normaları 03.03.2016 tarixindən , AZN-1%, Xarici valyuta 0.5%
d) 2018-ci ilin dövlət büdəcəsinin gəlirləri 2.4 milyard manat olmuşdur

**155. Mərkəzi Bankın statistik bülleteninə əsasən aşağıdakı göstəricilərdən biri doğru deyil**
a) Uçot faiz dərəcəsi müvafiq illərin sonunda : 2018- 9.75%, 2017- 15%, 2015- 3% olmuşdur
b) 2018-ci ilin sonuna rəsmi valyuta ehtiyyatları 5.6 milyard ABŞ dolları olmuşdur
c) 2018-ci ilin əvvəlində inflyasiya 5.5%, sonunda isə 11% olmuşdur
d) Pul bazası 2018-ci ilin sonuna 9.55 milyard manat olmuşdur

**156. Pul aqreqatlarına dair sadalananlardan biri doğru deyil**
a) M0 - Mərkəzi Bankın və kommersiya banklarının kassalarında olan pullar daxil olmaqla Mərkəzi Bank tərəfindən dövriyyəyə buraxılmış nağd pul
b) M1=M0+tələb olunanadək əmanət və depozitlər;
c) M2=M1+müddətli əmanət və depozitlər;
d) M3=M2+sərbəst dönərli valyutada əmanət və depozitlər.

**157. Aşağıdakı terminlərdən birinin izahı düzgün deyil**
a) Devalvasiya- Milli valyutanın xarici valyutaya nəzərən məzənnəsinin ucuzlaşdırılmasıdır.
b) İşsizlik - iş tapa bilməyən əhalinin cəmi əmək qüvvəsinə (iqtisadi fəal əhali) nisbətidir.
c) Emissiya -Bütün növ pul nişanlarının və qiymətli kağızların dövriyyəyə buraxılmasıdır.
d) İnflyasiya - mal və xidmət qiymətlərinin ümumi artması ilə müşayiət olunan pulun dəyərsizləşməsi prosesidir

**158. Aşağıdakı terminlərdən birinin izahı düzgün deyil**
a) Kredit xətti - kreditorun borcalan qarşısında kredit vəsaitini təqdim etməklə bağlı öhdəliyinin hüquqi rəsmiləşdirilməsidir
b) REPO - Mərkəzi Bank (və ya bir kommersiya bankı) tərəfindən qiymətli kağızların digər banka sonradan geri almaq öhdəliyi olmadan satışıdır.
c) Mərkəzi Bankın notları- Mərkəzi Bank tərəfindən bir ilədək müddətinə buraxılan adlı sənədsiz dövlət güzəştli qiymətli kağızlarıdır.
d) Pul bazası - Pul kütləsinin Mərkəzi Bank tərəfindən qısa müddət ərzində dəyişdirilə bilən hissəsi (dövriyyədə olan nağd pul və bank ehtiyatları)

**159. Aşağıdakı terminlərdən birinin izahı düzgün deyil**
a) Sərt pul siyasəti- İnflyasiyanın azaldılmasına və iqtisadiyyatda hərarətlənmənin azaldılmasına yönəldilmiş pul siyasəti tədbiridir.
b) Sterilizasiya - Artmış pul kütləsinin inflyasya potensiala malik izafi hissəsinin dövriyyədən çıxarılması
c) SVOP - Məzənnə riskindən sığortalanmaq məqsədilə müəyyən müddətdən sonra yenidən əksinə mübadilə edilməsi şərtilə milli valyutanın xarici valyutaya mübadilə edilməsi.
d) Tədiyə balansı – büdcənin mədaxil və məxaric formasında valyuta ilə ifadə olunmuş dəyəri

**160. Aşağıdakılardan bir doğru deyil**
a) Pul aqreqatları nağd pul vəsaitinə daha tez çevrilə bilmə imkanlarına görə fərqlənirlər
b) Təcrübədə 3 məzənnə rejimi mövcuddur: 1. Üzən 2. Üzən-tənzimlənən 3. Təsbit edilmiş
c) Mərkəzi Bank üzən məzənnə rejimində kəskin tərəddüdlərinin qarşısını almaq məqsədilə valyuta bazarına müdaxilə edə bilər
d) LİBOR- London banklararası kredit bazarında uzunmüddətli kreditlərin pərakəndə satış qiymətidir

**161. Aşağıdakı anlayışlardan biri doğru deyil**
a) emitent - kartların emissiyasını həyata keçirən, kart istifadəçilərinə xidmət göstərilməsini, kart əməliyyatlarının avtorizasiyasını və aparılmış əməliyyatların dəyərinin ekvayerə ödənilməsini təmin edən hüquqi şəxs
b) ekvayrinq - təsərrüfat subyekti və ya dövlət orqanı ilə bağlanmış müqavilə əsasında müvafiq olaraq ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması və ya vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə görə dövlət rüsumlarının və haqların ödənilməsi və ya kart istifadəçisinə nağd pul vəsaitinin verilməsi üzrə göstərilən xidmət
c) kart istifadəçisi - kart sahibindən kənar şəxsin kartdan istifadəsinə yol verilmir

d) təsərrüfat subyekti - ekvayerlə bağlanmış müqavilə əsasında müvafiq olaraq ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması üçün kartları ödəniş vasitəsi kimi qəbul edən şəxs

**162. Aşağıdakı anlayışlardan biri doğru deyil**

a) real vaxt rejimi - əməliyyatın bank tərəfindən təsdiq edildiyi an
b) POS-terminal - kart vasitəsilə nağdsız ödənişlərin aparılması, habelə nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıq
c) bankomat – ödənişlərin aparılması, nağd pul vəsaitinin verilməsi və qəbulu, habelə digər bank xidmətlərindən istifadə edilməsi üçün nəzərdə tutulmuş proqram-texniki kompleks
d) təmassız ödəniş - daxilində radiotezlikli identifikator quraşdırılmış kartın və ya kart istifadəçisinin müəyyən edilməsi üçün istifadə olunan vasitələrin bankomata, POS-terminala və ya digər ödəniş terminalına yaxınlaşdırılması ilə aparılan əməliyyat

**163. Kartların emissiyası və ekvayrinqinə dair sadalananlardan biri doğru deyil**

a) poçt rabitəsinin milli operatoru kart emissiyasi həyata keçirə bilər
b) Kart istifadəçisi kart vasitəsilə valyuta mübadiləsi əməliyyatı həyata keçirə bilməz
c) Kart sahibi ilə emitent arasında bağlanmış müqavilədə xidmət haqları sərbəst müəyyən edilir
d) bankomat daxilində kart istifadəçisinin üz təsvirini aydın çəkməyə imkan verən ən azı bir ədəd gizli kamera quraşdırılmalıdır.

**164. Korporativ kart haqqında qeyd edilənlərdən biri doğru deyil**

a) hüquqi şəxs və ya fərdi sahibkarla bağladığı müqavilə əsasında təqdim edilir
b) hüquqi şəxsin və fərdi sahibkarın ezamiyyə, nümayəndəlik və digər xərclərinin, habelə dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına icbari ödənişlərin ödənilməsində istifadə olunur
c) Korporativ kart dividend, əmək haqqı, pensiya, təqaüdlərin ödənilməsi və digər sosial xarakterli ödənişlər üçün istifadə oluna bilməz
d) hüquqi şəxsə və ya fərdi sahibkara kart hesabı üzrə istifadə məqsədi ilə ancaq 1(bir) ədəd kart verilə bilər

**165. Əvvəlcədən ödənilmiş kartlara dair sadalananlardan biri doğru deyil**

a) Yüklənə bilməyən əvvəlcədən ödənilmiş kartların maksimum müddəti iki il olmaqla, 500 AZN məbləğindək eyniləşdirmə olmadan, 1500 AZN-dən yuxarı isə şəxsiyyət vəsiqəsi əsasında təqdim edilir
b) Yüklənə bilən kartların müddəti 5 ildən çox ola bilməz, eyniləşdirilmədiyi halda məbləğ 100 AZN, eyniləşdirildiyi halda illik məxaric həcmi 30.000 AZN-dən çox olma bilməz.
c) Əvvəlcədən ödənilmiş kartlar yalnız fiziki şəxslər tərəfindən istifadə olunur.
d) eyniləşdirilməyən əvvəlcədən ödənilmiş kartlar vasitəsilə pul köçürməsi və nağdsız formada başqa kart hesabina köçürmə əməliyyatı icra etmək olmaz

**166. Kart vasitəsilə əməliyyatların aparılması zamanı (biri doğru deyil)**

a) Sahibkarların hesabina bağlı kart üzrə bankomatdan vəsait nağdlaşdıran zaman 1% nağdlaşdırma vergisi ödənilmir
b) Azərbaycan Respublikasının rezidentləri tərəfindən qeyri-rezident şəxslərə məxsus elektron pul kisəsində yaradılan hesaba pul köçürülərkən ödəmə mənbəyində 10% vergi tutulur (məs. www.Paypal.com)
c) elektron ticarətin satıcıları tərəfindən işlərin və xidmətlərin təqdim edilməsi, habelə elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin keçirilməsi zamani 18% ƏDV tətbiq edilir
d) POS-terminal vasitəsilə 50 (əlli) manat və ondan yuxarı məbləğdə həyata keçirilən nağdsız əməliyyatlar PİN-kodun daxil edilməsi yolu ilə icra edilir

**167. Nağdsız hesablaşmalar və pul köçürmələri aşağıdakılardan biri ilə aparıla bilməz**

a) Bank olmayan kredit təşkilatları
b) poçt rabitəsinin milli operatoru
c) xarici bankların yerli filialları
d) banklar

**168. Aşağıdakı formalardan biri nağdsız hesablaşmalara aid deyil**

a) Vergi, DSMF və gömrük orqanlarının və inkasso sərəncamları ilə hesablaşmalar
b) ödəniş tapşırıqları və ödəniş kartları ilə hesablaşmalar
c) satıcının hesabına kassadan vəsaitin mədaxil edilməsi

d) ödəniş tələbnamə-tapşırıqları ilə hesablaşmalar

**169. Aşağıdakı müddəalardan biri doğru deyil**

a) Ödəniş sənədləri yazıldığı gündən (yazılma günü nəzərə alınmadan) 3 (üç) iş günü ərzində banka təqdim edilir
b) Ödəniş sənədi poçt rabitəsi vasitəsi ilə banka göndərildikdə müddət ödəniş sənədinin poçta verilmə tarixini göstərən poçtun ştampına əsasən müəyyən olunur
c) Kağız daşıyıcılarında ödəniş sənədləri ancaq texniki vasitələrdən istifadə edilməklə doldurula bilər
d) Eyni əməliyyat günündə bir ödəyici və ya vəsait alan tərəfindən icraya təqdim olunan ödəniş sənədləri təkrarlanmayan nömrəyə malik olmalıdır

***170.* Ödəniş sənədi aşağıdakı hallardan birində qüsurlu sayılmır** *(Qüsurlu ödəniş sənədləri icraya qəbul edilmir)*

a) Ödəniş tapşırığının tərtib olunma tarixi ilə banka təqdim edilmə tarixi arasında 3 təqvim günü olduqda
b) ödəniş sənədinin rekvizitlərində uyğunsuzluq olduqda, ödənişin təyinatı və əsası göstərilmədikdə
c) rəqəmlə və yazı ilə göstərilən məbləğlər arasında uyğunsuzluq olduqda, üzərində düzəliş və ya pozulmalar edildikdə
d) nüsxələr eyni olmadıqda, ödəniş sənədində və imza nümunələri vərəqəsində qeyd olunmuş imzalar (möhür) arasında uyğunsuzluq olduqda

**171. Ödəniş sənədi üzrə hesabdan pul vəsaitinin silinməsi növbəliliyini göstərin** (hesabda bütün tələbləri yerinə yetirəcək qədər vəsait olmadıqda)

**1.** verilmiş kreditlər üzrə ödənişlər
**2.** dövlət və bələdiyyə büdcəsinə ödənişlər, Vergi və DSMF sərəncamları
**3.** həyata və ya sağlamlığa vurulmuş zərərin, alimentlərin ödənilməsi
**4.** əmək haqqı və müəlliflik müqaviləsinə görə haqların ödənilməsi

a) 4, 2, 3, 1
b) 3, 4, 2, 1
c) 2, 4, 3, 1
d) 3, 1, 4, 2

**172. Bank hesabından çıxarışda aşağıdakı məlumatlardan birinin olması tələb deyil**

a) Bankın və hesab sahibinin adı, hesab üzrə giriş və çıxış qalığı, aparılan hər bir əməliyyatın məbləği
b) ödəniş əməliyyatının aparıldığı hesabın nömrəsi;
c) çıxarışın tarixi, əhatə etdiyi müddət, dövriyyələrin cəmi, hesabin valyutası
d) pul köçürülən qarşı tərəfin tam rekvizitləri

**173. Ödəniş tapşırıqları ilə hesablaşmalara dair qeyd edilənlərdən biri doğru deyil**

a) Ödəniş tapşırığı (Əlavə №1) ödəyici tərəfindən doldurulur.
b) ödəyici və vəsait alan eyni bankın müştərisi olduqda tərəflər arasında hesablaşma bankdaxili müxabirləşmə əsasında həyata keçirilir
c) Büdcə və büdcədənkənar dövlət fondlarının ödənişlərini həyata keçirmək üçün ödəyici tərəfindən sənədin D1 hissəsində Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinin rekvizitləri
d) ödəniş tapşırığının rekvizitlərində uyğunsuzluq olduqda benefisiar bank emitent banka növbəti iş günündən gec olmayaraq sorğu göndərir. Bu sorğu emitent bank tərəfindən 5 (beş) iş günü ərzində cavablandırılmadıqda, benefisiar bank ödəniş əməliyyatı üzrə pul vəsaitini növbəti iş günü səbəbi göstərilməklə emitent banka geri qaytarır

**174. Ödəniş tələbnamə-tapşırığı ilə hesablaşmalara dair qeyd edilənlərdən biri doğru deyil**

a) Ödəniş tələbnamə-tapşırığı ilə hesablaşmalar zamanı emitent bank ödəyicinin əvvəlcədən verdiyi sərəncam əsasında vəsait alan tərəfindən təqdim olunan ödəniş tələbnamə-tapşırığı üzrə ödənişi vəsait alanın xeyrinə həyata keçirir
b) Ödəyici ödəniş tələbnamə-tapşırığının icrası üzrə sərəncamı vəsait alanla bağladığı müqavilədə nəzərdə tutulmuş ödəniş tarixindən ən azı 2 (iki) iş günü əvvəl emitent banka təqdim edir.
c) emitent bank ödəyicinin sərəncamının olmaması, geri alınması və ya ödəniş tələbnamə-tapşırığının qüsurlu olması səbəbindən növbəti əməliyyat günü ərzində səbəbi göstərilməklə ödəniş tələbnamə-tapşırığını vəsait alana geri qaytarır
d) Ödəyici ödəniş tələbnamə-tapşırığı ilə ödənişlərin icrası üzrə verdiyi sərəncamı bank hesabından vəsaitin silinməsi üçün müəyyən etdiyi gün geri götürə bilər.

**175. Bank icra məmrunun icra sənədini qəbul etdikdə : (biri doğru deyil)**

a) pul vəsaitlərinin olmasına baxmayaraq, təqdim olunmuş icra sənədinin borcludan pul vəsaitlərinin tutulmasına dair tələblərini icra etmədikdə cinayət məsuliyyətinə cəlb edilə bilər
b) icra məmurunun xarici valyutanın satılması barədə qərarını onun daxil olduğu vaxtdan 7 gün müddətində yerinə yetirir
c) borclunun hesablarında tələbkarın tələblərinin təmin edilməsi üçün yetərli pul vəsaitləri olmadığından, həmin tələblərin tamamilə və ya qismən icra edilməməsi barədə icra sənədində qeyd yazır
d) icra sənədini aldığı vaxtdan 7 gün müddətində icra sənədinin pul vəsaitlərinin tutulmasına dair tələblərini icra edir

**176. Ödəyicinin bank hesabında vəsait olmadıqda və ya çatışmadıqda (biri doğru deyil)**

a) inkasso sərəncamı bank tərəfindən icraya qəbul olunduğu gündən 2 (iki) ay müddətində icraçı bankda saxlanılır.
b) Vergi sərancamı bankda müddətsiz saxlanılır və vergi ödəyicisinin hesablarına vəsait daxil olduqca icra edilir.
c) Dövlət Sosial Müdafiə Fondunun sərəncamı icraya qəbul olunduğu müddətsiz saxlanılır və müvafiq hesablara vəsait daxil olduqca icra edilir.
d) İşsizlikdən sığorta haqqının ödənilməməsinə dair sərəncam 90 (doxsan) gün ərzində icraçı bankda saxlanılır

**177. Müştərinin bank hesabina vergi orqani tərəfindən sərəncam daxil olduqda (hansı doğru deyil):**

a) Dondurulmalı sərəncam daxil olan zaman bank borc məbləğinin 105%-i həcmində vəsaiti hesabda məxaric edilməməsi üçün bloklaşdırır
b) Vergi orqanının sərəncamı geri qaytarılana qədər kredit təşkilatları və ya bank əməliyyatları aparan şəxslər vergilər üzrə borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınmasını (ödənilməsini) təsdiq edən sənəd əsasında alınmış (ödənilmiş) həmin məbləğ həcmində vergi ödəyicisinin vəsaitini hesabda dondurmaqla, belə vəsaitlər üzrə sərəncamın icrasını dayandırır.
c) xarici valyutada olan pul vəsaiti hesaba vergi orqanının sərəncamı daxil olduğu gündən 7 bank günü ərzində müştəri tərəfindən konvertasiya edilmədikdə, növbəti iş günü ərzində Azərbaycan Respublikası Mərkəzi Bankının elan etdiyi məzənnə ilə xarici valyutada olan dondurulmuş pul vəsaiti bank tərəfindən konvertasiya edilməklə sərəncam icra edilir.
d) Vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsait olduqda vergi orqanının sərəncamı bank və ya digər kredit təşkilatı tərəfindən həmin sərancamın daxil olduğu gün icra edilir

**178. Pul köçürmələri haqqında sadalananlardan biri doğru deyil**

a) Pul köçürmələri milli və xarici valyutada həyata keçirilir
b) Vəsaiti qəbul edən bank ödəniş sənədlərində səhvlik aşkar etdikdə və ya gələn vəsaitin 30 gün müddətində alınmaması halında pul köçürməsi geri qaytarılır və ödəyici 5 (beş) iş günü ərzində məlumatlandırılır
c) Pul köçürməsi aşağıdakı hallarda başa çatmış hesab olunur: vəsait alanın bank hesabına mədaxil edildikdə, bank hesabı olmayan vəsait alana nağd pul təqdim edildikdə
d) Pul köçürməsi vasitəsi ilə sahibkarlıq subyektləri ancaq dövlət fondlarına ödənişləri icra edə bilərlər

**179. Korporativ idarəetmənin üsulunu xarakterizə etməyən cəhəd hansıdır**

a) bankın strateji baxışı əsasında onun strateji vəzifə və hədəfləri
b) idarəetmə səviyyələrində dəqiq səlahiyyət bölgüsü
c) İyerarxik olmayan strukturun formalaşdırılması və idarə etmənin mərkəzləşməsi
d) risklərin səmərəli idarə edilməsinə və fəaliyyətinin şəffaflığına nail olunması məqsədi ilə effektiv daxili nəzarət sisteminin tətbiqi

**180. Strateji planlaşdırma prosesinin təşkilinə aid deyil**

a) 6 aylıq dövrüç nəticlərini pronozlaşdırmaq üçün stress testlərin keçirilməsi
b) strateji baxışını müəyyən edilməsi və onun əsasında strateji planlaşdırma dövrü üçün missiya bəyanatının hazırlanması
c) Strateji baxış və missiya bəyanatı İdarə Heyəti tərəfindən hazırlanir, Müşahidə Şurası tərəfindən təsdiq edilir

d) Strateji plan ən azı üç illik dövrü əhatə etməlidir və İdarə Heyəti ən azı yarım ildə bir dəfə Strateji planın icrası barədə hesabat verir

**181. Aşağıdakılardan biri risklərin idarə edilməsi sistemi üçün müdafiə xətti hesab edilmir**

a) birinci müdafiə xətti: bankın müştərilərinə xidmət göstərən, məhsul və xidmətlərin inkişafını həyata keçirən struktur bölmələr, habelə bankın filial və şöbələr
b) ikinci müdafiə xətti: bankda risklərin idarə edilməsi funksiyasını həyata keçirən struktur bölmələr
c) üçüncü müdafiə xətti: audit funksiyasını həyata keçirən struktur bölmələr
d) dördüncü müdafiə xətti: səhmdarların ümumi yığıncağı

**182. Bankın təşkilati strukturu və reqlamentinə aid qeyd edilənlərdən biri doğru deyil**

a) Bankın təşkilati strukturu və idarəetmə orqanlarının əsasnamələri Səhmdarların ümumi yığıncağı və ya səlahiyyət verildiyi halda Müşahidə Şurası tərəfindən təsdiq edilir
b) Hər bir bankın təşkilati strukturunda daxili audit, daxili nəzarət və risklərin idarə edilməsi funksiyalarını həyata keçirən struktur bölmələr olmalıdır
c) Bankın daxili komitələrinin və struktur bölmələrin əsasnamələri bankın Müşahidə Şurası tərəfindən təsdiq edilir
d) Müşahidə Şurası bankın, onun struktur bölmələrinin və törəmə təsərrüfat cəmiyyətlərinin idarə etməsini həyata keçirir

**183. Müşahidə Şurasının üzvlərinin fidusiar vəzifələrinə aid deyil**

a) bank və digər maliyyə sektorlarında baş verən mühüm hadisələr və mövcud olan meyllər haqqında məlumatlı olmalıdır
b) bankın büdcəsinin yerinə yetirilməsinin təmin edilməsi
c) Audit Komitəsinin müstəqil olmasının təmin edilməsi
d) İdarə Heyəti üzvlərinin peşəkarlığını dövri olaraq qiymətləndirilməsi

**184. Aşağıdakı müddəalardan hansı doğru deyil**

a) Daxili audit bölməsinin əməkdaşları bankın İdarə Heyətinin üzvü ola bilməzlər.
b) Bankın bir və ya bir neçə struktur bölməsinə (daxili audit bölməsi istisna olmaqla) nəzarət (kurasiya) yalnız İdarə Heyətinin üzvü tərəfindən həyata keçirilir.
c) Audit Komitəsi daxili audit sisteminin fəaliyyətinin təşkili məqsədi ilə Müşahidə Şurası tərəfindən yaradılır və İdarə Heyətinə tabe olur
d) İdarə Heyətinin üzvləri və (və ya) bankın səhmdarları Audit Komitəsinin üzvü ola bilməzlər.

**185. Audit Komitəsinin vəzifələrinə aid deyil**

a) kənar auditorla birgə işi təşkil edir, təkliflər verir
b) daxili auditorların vəzifədə irəliləyişi, işdən kənarlaşdırılması və ya azad olunması, habelə mükafatlandırılması barədə bankın Müşahidə Şurasına təkliflər verir
c) daxili audit bölməsinin əsasnaməsi və onun saxlanılması xərcləri haqqında Müşahidə Şurasına təklif verir
d) Yeni bank məhsullarının yaradılmasını barədə qərar qəbul edir.

**186. Komitələrə dair qeyd edilənlərdən biri doğru deyil**

a) Daxili komitələrin sədrləri və üzvləri Idarə Heyəti tərəfindən təyin edilir.
b) Hər bir bankda Riskləri İdarəetmə Komitəsi və Mükafatlandırma Komitəsi olmalıdır
c) Müşahidə Şurasının üzvləri Audit Komitəsinin üzvü ola bilərlər.
d) Daxili komitələr onların iclaslarında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

**187. Komitələrə dair qeyd edilənlərdən biri doğru deyil**

a) Riskləri idarəetmə və Mükafatlandırma komitələrinin sədrləri Müşahidə Şurasının üzvləri sırasından təyin edilir.
b) Daxili komitələrin tərkibi Müşahidə Şurası, İdarə Heyəti və Audit Komitəsinin üzvlərindən, bank əməkdaşlarından formalaşdırıla bilər
c) Audit Komitəsinin sədri (səsvermə hüququ olmaqla), Baş maliyyə inzibatçısı, habelə İT direktor , Riskləri İdarəetmə Komitəsinə üzv olmalıdırlar
d) Riskləri İdarəetmə Komitəsinin və Mükafatlandırma Komitəsinin üzvləri sırasına bankın hər hansı fəaliyyət sahəsini təmsil edən yalnız bir nümayəndə daxil ola bilər.

**188. Komitələrinin say tərkibinə dair qeyd edilənlərdən biri doğru deyil**

a) Mükafatlandırma Komitəsi tək sayda ən azı üç nəfər üzvdən ibarət olmaqla yaradılır.
b) Riskləri İdarəetmə Komitəsi ən azı beş nəfər səsvermə hüququ olan üzvdən ibarət olmaqla yaradılır.
c) Bankın Audit Komitəsi 5 nəfərdən az olmamaqla tək sayda üzvlərdən ibarətdir.
d) İdarə Heyəti və Müşahidə Şurası 3 nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir

**189. Mükafatlandırma siyasətinin prinsiplərinə uyğun olmayanı tapın**

a) bankın strateji hədəflərə nail olmasına yönəldilməli
b) bank tərəfindən üzərinə uzunmüddətli risklərin götürülməsi hesabına qısamüddətli dövrdə gəlir əldə etməsinə yönəlməlidir
c) bankın uzunmüddətli fəaliyyət nəticələrinə və mənfəətliliyinə əsaslanmalı
d) bankın risk iştahasına adekvat olmalı və izafi risk qəbulu məhdudlaşdırmalı

**190. Mükafatlandırılmaya dair sadalananlardan biri doğru deyil**

a) mükafatın öncədən müəyyən edilmiş və təxirə salınmış hissəsinin ödənilməsi bankın kapital adekvatlığı və likvidlik göstəricilərini ən azı 25 faiz pisləşdikdə ödənilməməli
b) mükafatın verilməsi barədə qərar ildə bir dəfə qəbul edilir.
c) bankın səhmləri ilə ödənilən mükafatlar istisna olmaqla mükafatın ən azı 50 (əlli) faizinin ödənişi təxirə salınır və növbəti üç il ərzində bərabər hissələrlə ödənilir
d) Audit Komitəsi və İdarə Heyətinin üzvlərinin mükafatlandırılması üzrə qərar isə Müşahidə Şurası tərəfindən təsdiq edilir.

**191. Hansı halda bankın rəhbərliyinə mükafat ödənilə bilər**

a) $NPA_B \leq NPA_S$ və $NPA_S < NPA_B \leq 1.25 \times NPA_S$
b) Mərkəzi Bankdan sonuncu instansiya kreditoru qismində kredit almış bankda kredit üzrə öhdəliklər tam yerinə yetirilənədək
c) Nəzarət orqanin normativ tələblərə dair məcburi tələbi tam yerinə yetirilənədək
d) $NPA_B > 1.25 \times NPA_S$

**192. Aşağıda sadalananlardan biri doğru deyil**

a) Bankın illik maliyyə hesabatları Səhmdarların ümumi yığıncağı və uçot siyasəti Müşahidə Şurası tərəfindən təsdiq olunur
b) Bankın illik büdcəsi İdarə Heyəti tərəfindən təsdiq edilir
c) İdarə Heyəti maliyyə planlaşdırılması sistemini yaradır və illik büdcənin icra vəziyyətini təhlil edir;
d) Baş maliyyə inzibatçısı bankın mühasibat, hesabatlıq və maliyyə nəzarəti funksiyalarını yerinə yetirən struktur bölmələrin işinin lazımi qaydada təşkil olunmasını təmin edir

**193. Aşağıda sadalananlardan biri doğru deyil**

a) Banklar məhdudiyyət qoyulmadan tədavülə yararlı, tədavülə yararsız və həqiqiliyi şübhə doğurmayan (saxta olmayan), bütöv bir hissədən ibarət səthinin 90%-dən az olmayan hissəsini saxlamış milli pul nişanlarmı qəbul etməli və dəyişdirməlidir.
b) Mərkəzi Bank pul nişanlarının həqiqiliyi (saxta olub olmaması) və səthi tam olmayan əskinasların səthi, xarici pul nişanlarında isə saxtakarlıq əlamətləri haqqında ekspert rəyini verir.
c) Müvəkkil banklar zədələnmiş xarici valyuta pul nişanlarım dəyişdirə bilərlər.
d) Fiziki və hüquqi şəxslər milli pul nişanlarını ekspertizadan keçirmək məqsədi ilə onları banklara, Milli Banka və ya onun qurumlarına əlavə haqq ödəmədən təqdim edə bilərlər.

**194. Aşağıdakılardan biri tədavülə yararlı pul hesab edilmir**

a) həqiqiliyinə şübhə olmayan, dizaynına və ölçülərinə görə standartlara uyğun olan
b) səthi tam və bütöv olan, nominalı aydın və tam müəyyən edilən
c) həqiqi pul nişanlarının nominalının və digər parametrlərinin dəyişdirilməsi nəticəsində düzəldilmiş pullar
d) vizual görünüşünü itirməyən, qüsurlu olmayan

**195. Kassa işinin təşkilinə dair qeyd edilənlərdən biri doğru deyil**

a) Kassaların növləri: mədaxil (gündüz və axşam), məxaric, mədaxil-məxaric, yenidənsayma, valyuta mübadilə məntəqələrinin kassaları və bankomatlar
b) Pul saxlanan yerin açarı itdikdə və ya sıradan çıxdıqda akt tərtib etməklə kilidin özü və ya kodu dəyişdirilir. Açarların itirilməsində təqsiri olan şəxslər intizam məsuliyyətinə cəlb edilirlər

c) Kassa qovşağının qoyulmuş tələblərə cavab verilməsinə kredit təşkilatının rəhbərliyi tam məsuliyyət daşıyır.
d) Kassirlərin şəxsi nağd pulunun və saxlanılan qiymətlilər qismindən olan əşyalarının kassa otağında saxlanılması qadağandır.

**196. Pul saxlanan yerlərin açılması və bağlanması qaydalarına dair qeyd edilənlərdən biri doğru deyil**
a) birinci açar - kassanın müdirində (və ya kassa əməliyyatlarına məsul vəzifəli şəxsdə);
b) ikinci açar - kredit təşkilatının rəhbərində (ümumi rəhbərliyə məsul vəzifəli şəxsdə);
c) üçüncü açar - kredit təşkilatının baş mühasibində (uçot işinə məsul olan vəzifəli şəxsdə).
d) Ehtiyat açarları kisəyə qoyulmalı və açarları olan şəxslərin möhürləri ilə möhürlənməli, rəsmi qaydada saxlanılmaq üçün AMB-a və ya filial rəhbərində saxlanılmalıdır.

**197. Kassa işinin təşkilinə dair qeyd edilənlərdən biri doğru deyil**
a) Axşam kassası ancaq mədaxil üçün nəzərdə tutulmuşdur
b) Qiymətlilərin inkassasiyası kredit təşkilatının bir nəfər inkassatoru və polis əməkdaşı tərəfindən həyata keçirilir
c) Kredit təşkilatlarının daxili prosedurlarında nəzərdə tutulduğu halda, açarlar axşam mədaxil kassasının işçilərində saxlanıla bilər.
d) Nağd pulun məxarici "pul çekləri"nə və kassa məxaric orderinə əsasən həyata keçirilir

**198. Səhmdar cəmiyyətinə dair qeyd edilənlərdən biri doğru deyil**
a) Səhmdar cəmiyyətinin mühüm iştirak payına malik olan iştirakçıları istisna olmaqla digər səhmdarlar cəmiyyətin öhdəlikləri üçün cavabdeh deyildirlər və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün onlara mənsub səhmlərin dəyəri həddində risk daşıyırlar.
b) Səhmdar cəmiyyətinin iştirakçıları onlara mənsub səhmləri digər səhmdarların razılığı olmadan
c) Nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünmüş cəmiyyət səhmdar cəmiyyəti sayılır.
d) özgəninkiləşdirə bildikdə, o, açıq səhmdar cəmiyyəti sayılır
e) Səhmdar cəmiyyətinin firma adında onun adı, habelə "açıq səhmdar cəmiyyəti" və ya "qapalı səhmdar cəmiyyəti" sözləri göstərilməlidir.

**199. Səhmdar cəmiyyətinə dair qeyd edilənlərdən biri doğru deyil**
a) Səhmləri yalnız onun təsisçiləri arasında və ya qabaqcadan müəyyənləşdirilmiş digər şəxslər dairəsində yayılan səhmdar cəmiyyəti qapalı səhmdar cəmiyyətidir
b) Açıq və qapalı səhmdar cəmiyyətləri illik maliyyə hesabatlarını (mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla) hər il dərc etməyə borcludur
c) Səhmdar cəmiyyətinin nizamnaməsinin tələblərinə riayət edilməsi cəmiyyətin bütün orqanları, vəzifəli şəxsləri və səhmdarları üçün məcburidir.
d) Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvləri fiziki şəxslər ola bilər və ümumi yığıncaqda beş ildən artıq olmayan müddətə seçilirlər

**200. Girov və ipoteka hüququna dair qeyd edilənlərdən biri doğru deyil**
a) Girov və ipoteka hüququ əşya hüquqlarının məhdudlaşdırılması və borclunun girov saxlayan qarşısında pul və ya başqa öhdəliyinin icrasının təmin edilməsi üsuludur.
b) İpoteka daşınmaz əşyalara, habelə rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşyalara əşya hüquqlarının məhdudlaşdırılmasıdır.
c) Ümumi paylı mülkiyyətin mülkiyyətçilərindən hər hansı biri ümumi əşyaya hüquqdakı payını digər mülkiyyətçilərin razılığı aldıqdan sonra girov qoya bilər.
d) Ümumi birgə mülkiyyətdə olan əşya yalnız bütün mülkiyyətçilərin yazılı razılığı olduqda girov qoyula bilər.

**201. Aşağıdakılardan biri girov növü deyil**
a) əşyanın lombardda girovu, saxlanc
b) ödənilməmiş borclar müqabilində sərəncamla müştərinin hesabında dondurulmuş vəsait
c) hüquqların girovu, sabit girov
d) pul vəsaitinin girovu, dövriyyədəki malların girovu

**202. Girov növlərinə dair qeyd edilənlərdən biri doğru deyil**

a) Dövriyyədəki malların girovu zamanı girov qoyulan mallar girov qoyanda saxlanılır və girov qoyana girov qoyulmuş əmlakın (əmtəə ehtiyatları, xammal, materiallar, yarımfabrikatlar, hazır məhsul və i.a.) tərkibini və natural formasını dəyişdirmək hüququ verilmir
b) Əşyanın lombardda girovu haqqında müqavilə lombardın girov bileti verməsi yolu ilə rəsmiləşdirilir.
c) Hüquq girov qoyularkən girov predmeti özgəninkiləşdirilə bilən hüquq, o cümlədən torpaq sahəsinin, binanın, qurğunun, yaşayış evinin (mənzilin) icarəsi hüququ, mülkiyyətdəki paya hüquq, borc tələbidir
d) Sabit girov elə girovdur ki, onun predmeti girov saxlayanın qıfılı altında və ya girovu ifadə edən nişanlar vurulmaqla, girov qoyanda saxlanılır.

**203. İpoteka müqaviləsi haqqında qeyd edilənlərdən biri doğru deyil**
a) Daşınmaz əmlakın ipotekası haqqında müqavilə daşınmaz əmlakın dövlət reyestrində, daşınar əmlakın ipotekası haqqında müqavilə isə dövlət qeydiyyatına alınmalı olan daşınar əmlakın rəsmi reyestrində qeydə alınmalıdır.
b) Qeyri-yaşayış binasının ipoteka müqaviləsinin rəsmiləşdirilməsi zaman mülkiyyətçinin 18 yaşdan çox yaşı olan ailə üzvləri notarial qaydada razılıq verməlidir
c) İpoteka müqaviləsi notariat qaydasında təsdiqlənməlidir, müqavilədə ayrı şərt qoyulmayıbsa, ipoteka verilməsi xərclərini borclu çəkir.
d) İpoteka müqaviləsində ipoteka qoyanın elektron poçt ünvanı göstərilməlidir

**204. Zaminlik üçün qeyd edilənlərdən biri doğru deyil**
a) zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür.
b) Borclu zaminliklə təmin edilmiş öhdəliyi icra zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyırlar.
c) zaminliyə onun təmin etdiyi öhdəliyin icrası vaxtının çatdığı gündən üç il ərzində kreditorun zaminə qarşı iddia irəli sürmədiyi halda xitam verilir.
d) Zamin borcludan kreditora ödənilmiş məbləğdən faizlər ödəməyi və borclunun əvəzinə məsuliyyətlə bağlı çəkdiyi digər zərərin əvəzini ödəməyi tələb edə bilər.

**205. Qarantiya üçün qeyd edilənlərdən biri doğru deyil**
a) Qarantiyaya əsasən qarant (bank) digər şəxsin (prinsipalın) xahişi ilə prinsipalın kreditoruna (benefisiara) qarantiya öhdəliyinin şərtlərinə uyğun olaraq benefisiar pul məbləğinin ödənilməsi barədə yazılı tələb təqdim etdikdə həmin məbləği ödəyəcəyi barədə yazılı öhdəlik verir.
b) Qarantiyanin icra, ödəniş, tender, avans və sair kimi növləri vardir
c) Qarantın benefisiar qarşısında qarantiya üzrə öhdəliyinə qarantiya verilmiş məbləğ benefisiara ödənildikdə və qarantiyada müəyyənləşdirilmiş müddət qurtardıqda xitam verilir
d) Qarantiya müddəti yekunlaşanadək prinsipalın rəsmi müraciəti əsasında qarantiyaya xitam verilə bilər

**206. Bank əmanəti haqqında qeyd edilənlərdən biri doğru deyil**
a) Poçt rabitəsinin milli operatoru əmanət (depozit) qəbul edə bilər
b) Əmanət müqaviləsinə görə bank əmanətçidən daxil olmuş pul məbləğini (əmanəti) qəbul edərək müqavilədə nəzərdə tutulmuş şərtlərlə və qaydada əmanət məbləğini əmanətçiyə qaytarmağı və onun üçün faizlər ödəməyi öhdəsinə götürür.
c) Fiziki şəxs əmanətçinin ilk tələbi ilə bank əmanətin məbləğinin ən azı 50%-ni dərhal, qalan hissəsini isə ən geci beş bank günü müddətində verməlidir
d) əmanətin qoyulması bank kitabçası ilə, bank və ya depozit sertifikatı ilə və ya bank tərəfindən əmanətçiyə verilmiş digər sənədlə , yazılı müqavilə ilə təsdiq edilməldir

**207. Bank əmanəti haqqında qeyd edilənlərdən biri doğru deyil**
a) Əmanətçinin tələbi ilə müqavilə üzrə müddət tamamlanmadan əmanət qaytarılan zaman bank müqavilə üzrə ümumi hesablanacaq faizləri ödəməyə bilər
b) Müddətli əmanətin müddəti bitdikdə əmanətçi əmanəti tələb etmirsə müqavilə tələbli əmanətin şərtlərinə əsasən uzaldıla bilər
c) Bank müqavilədə nəzərdə tutulduğu halda tələbli əmanət üzrə faizləri müştəriyə xəbər verdikdən bir ay sonra dəyişə bilər, * 2016-cı il fevralın 1-dən etibarən 7 (yeddi) il müddətində fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri vergidən azaddır.
d) Müqavilədə ödənilən faizlərin miqdarı haqqında şərtlər olmadıqda bank faizləri icra edildiyi gün üçün bank faiz dərəcəsi dəhlizinin yuxarı həddi miqdarda ödəməlidir.

**208. Bank əmanəti haqqında qeyd edilənlərdən biri doğru deyil**

a) Şəxs üçüncü şəxslərin xeyrinə bank əmanət müqaviləsi bağladıqdan sonra əmanət üzrə istifadə hüququnu itirmiş olur
b) Əmanət məbləğinə faizlər məbləğ bank hesabina daxil olan günün ertəsi gündən, qaytarılan zaman isə bir gün əvvələ qədər olan faiz məbəği nəzərə alınır
c) Əgər bank əmanət müqaviləsində faizlərin ödənilməsi intervalı göstərilməyibsə faizlər rüblük və qaytarılanda həmin anadək hesablanmaqla tam olaraq ödənilir
d) Əmanətçinin əmanət üzrə hesabına dair lazımi məlumat göstərilməklə banka onun adına üçüncü şəxslərdən vəsait qəbul edilə bilər

**209. Bank əmanət kitabçası haqqında qeyd edilənlərdən biri doğru deyil**

a) Əgər ayrı hal sübuta yetirilməyibsə, bank kitabçasında göstərilmiş əmanət haqqında məlumatlar bankla əmanətçi arasında əmanət üzrə hesablaşmalar üçün əsasdır
b) Bank , bank kitabçasını qeyri-qanuni yollarla və ya itirmə nəticəsində əldə etmiş şəxslə həmin kitabça üzrə hesablaşma aparırsa, ixtiyari halda məsuliyyətdən azad olunur
c) Bank əmanətin verilməsini, əmanət üzrə faizlərin ödənilməsini və əmanət üzrə hesabdan pul vəsaitinin digər şəxslərə köçürülməsinə dair əmanətçinin sərəncamlarının icrasını bank kitabçası təqdim olunduqda həyata keçirir
d) Bank əmanəti müqaviləsində adlı bank kitabçasının və ya adsız bank kitabçasının verilməsi nəzərdə tutula bilər.

**210. Aşağıdakılardan hansı qorunan əmanətdir**

a) bankın Azərbaycan Respublikasının ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər
b) məbləğindən asılı olmayaraq cəlb edildiyi günə uyğun olaraq milli valyutada 10%-dək, xarici valyutada 2.5%-dək illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər
c) cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər, üzərinə həbs qoyulmuş əmanətlər
d) fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı 20 000 AZN dən çox olan pul vəsaitləri, notariusun depozit hesabına mədaxil edilmiş fiziki şəxslərə məxsus vəsaitlər

**211. Aşağıdakılardan hansı qorunan əmanətçi hesab edilir**

a) bankın Müşahidə Şurasının, Audit Komitəsinin, idarə heyətinin üzvləri və onların yaxın qohumları
b) bankın 10 faiz və daha çox səsvermə hüququ verən səhmlərinə malik olan şəxslər və onların yaxın qohumları
c) Filial müdiri, imza səlahiyyətli müavini və filialın baş mühasibi
d) kompensasiyaların ödənilməsi barədə elanın ilk dəfə dərc edildiyi tarixdən əvvəlki təqvim ili ərzində bankın auditini keçirmiş kənar auditorlar

**212. Maliyyə bazarlarına nəzarət orqani tərəfindən təsdiq edilən faktlar biri sığorta hadisəsinin baş verməsi kimi qiymətləndirilmir**

a) bankın əmanətçilər qarşısında öz öhdəliklərini qanun və ya müqavilə şərtlərinə uyğun yerinə yetirə bilməməsi
b) əmanətlər üzrə öhdəliklərin yerinə yetirilməsinə moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi
c) iştirakçı bankın məcburi ləğv edilməsi və ya müflis elan olunması
d) kapital adekvatlığı əmsalında olan kənarlaşma

**213. Əmanətlərin Sığortalanması Fondu dair qeyd edilənlərdən biri doğru deyil**

a) Fiziki şəxslərin əmanətlərinin cəlb edilməsi üçün bank lisenziyasına malik olan bütün banklar və xarici bankların yerli filialları Fondun məcburi iştirakçılarıdır, sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində, lakin 100 (yüz) min manatdan çox olmamaq şərtilə kompensasiya ödənilir
b) təqvim haqları birinci ildə qorunan əmanətlərin rüb ərzində orta günlük qalıq məbləğinin 1,5 faizi, sonrakı illərdə isə 1,25 faizi həcmində ödənilir.
c) öhdəliklərini yerinə yetirmək üçün vəsaiti çatışmadıqda, maliyyə bazarlarından, Mərkəzi Bankdan və ya Azərbaycan hökumətindən borc vəsaitləri cəlb edir. 2016-cı il fevralın 1-dən etibarən 7 (yeddi) il müddətində fiziki şəxslərin əmanətləri üzrə illik faiz gəlirləri vergidən azaddır
d) Fondun sığorta ehtiyatları iştirakçı bankların üzvlük, təqvim, əlavə haqları, dəbbə pulları, istiqrazlardan daxil olmalar, qrant və ianələr, fəaliyyət nəticəsində əldə etdiyi gəlir və sair ibarətdir

**214. ƏSF tərəfindən kompensasiyaların ödənilməsinə dair qeyd edilənlərdən biri doğru deyil**

a) Fond tərəfindən hər bir iştirakçı bankda sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində kompensasiya ödənilir
b) Milli valyutada olan əmanətlər üzrə kompensasiya manatla, xarici valyutada olan əmanətlər üzrə isə əmanətlərin valyutasında ödənilir.
c) Əmanətlər üzrə faizlər sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə ödənilir
d) Bir əmanətçinin bir bankda bir neçə əmanəti olduqda, yaxud həm milli, həm də xarici valyutada əmanətləri olduqda ancaq manatla olan əmanət kompensasiya olunur

**215. Bank hesabı müqaviləsinə dair qeyd edilənlərdən biri doğru deyil**

a) Müştərinin sərəncamı olmadan hesabdakı pul vəsaitinin silinməsinə heç bir halda yol verilmir
b) Bank hesabda olan pul vəsaitinə dair müştərinin maneəsiz sərəncam vermək hüququna qarantiya verməklə, bu vəsaitdən istifadə edə bilər
c) Bank, bank hesabı müqaviləsi ilə nəzərdə tutulduğu halda müştərinin pul vəsaitinə sərəncam vermək hüququnu məhdudlaşdıra bilər
d) Bank müştərinin hesabına daxil olmuş pul vəsaitini müvafiq ödəniş sənədinin banka daxil olduğu günün ertəsi günündən gec olmayaraq hesaba salmalıdır (qanunda,müqavilədə başqa müddət nəzərdə tutulmayıbsa)

**216. Bank hesablarının bağlanmasına dair qeyd edilənlərdən biri doğru deyil**

a) Hesablar bağlandıqdan sonra bir il ərzində müştəri müraciət etməzsə hesab qalığı bankın gəlir hesabına silinir
b) Bank hesabı müqaviləsi müştərinin ərizəsi üzrə istənilən vaxt ləğv edilir
c) bir il ərzində həmin hesab üzrə əməliyyatlar aparılmadıqda hesablar bağlana bilər, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın
d) bank hesabı sahibinin bank hesabından qeyri-leqal məqsədlər üçün istifadə etməsi sübut edildikdə

**217. Qiymətli kağızlar haqqında qeyd edilənlərdən biri doğru deyil**

a) Qiymətli kağız onun mülkiyyətçisi və emitenti arasında müqavilə münasibətlərinin mövcudluğunu və mülkiyyətçinin həmin müqavilədən irəli gələn hüquqlarını təsdiqləyən sənəddir.
b) adsız qiymətli kağız, emitent öhdəliyi bu qiymətli kağızı təqdim edən istənilən şəxsə icra etməyi öz üzərinə götürür.
c) Qiymətli kağızlar (investisiya fond payı və daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla) Bakı Fond Birjası tərəfindən dövlət qeydiyyatına alınır.
d) Mülkiyyətçisinin adı üzərində təsbit edilən və ya mülkiyyət hüququ mərkəzi depozitarda qeydiyyata alınmış qiymətli kağız adlı qiymətli kağızdır.

**218. Qiymətli kağızların növlərinə aid deyil**

a) istiqraz, səhm, veksel
b) investisiya fond payı, girov kağızı ,depozitar qəbzi
c) ipoteka kağızı və daşınmaz əmlak sertifikatı
d) Emitentin firma blakında imza möhür ilə təsdiqlənmiş öhdəlik məktubu

**219. Qiymətli kağızların növlərinə dair sadlananlardan biri doğru deyil**

a) İstiqrazlar və səhmlər investisiya qiymətli kağızlarıdır.
b) Sənədli qiymətli kağız xüsusi qaydada hazırlanmış elektron, şifrələnmiş fayllardan ibarətdir
c) İnvestisiya qiymətli kağızları sənədsiz və ya sənədli olmaqla adlı formada buraxılır.
d) Veksellər ödəniş qiymətli kağızlarıdır

**220. İstiqraz haqqında qeyd edilənlərdən biri doğru deyil**

a) İstiqraz emitentin istiqraz mülkiyyətçisinə borclu olduğunu təsdiqləyən və şərtlərindən asılı olaraq, müəyyən edilmiş tarixdə faiz (kupon) və ya diskont və əsas məbləği ödənilən borc investisiya qiymətli kağızıdır.
b) Təmin edilmiş istiqrazlar onlardan irəli gələn öhdəliklər girovla, qarantiya ilə, həmçinin dövlət və ya bələdiyyə zəmanəti ilə təmin olunan istiqrazlardır
c) Girovla təmin edilmiş istiqrazlar üzrə girov predmeti investisiya qiymətli kağızları, daşınmaz əmlak sertifikatları, daşınmaz və rəsmi reyestrdə üzərində mülkiyyət hüququ qeydə alınan daşınar əşyalar və sair ola bilər.

d) İpoteka istiqrazlarını kredit təşkilatları, ipoteka təyinatlı fondlar və sığorta təşkilatları buraxa bilər

**221. Səhm haqqında qeyd edilənlərdən biri doğru deyil**

a) Səhm mülkiyyətçisinin həmin səhmin nominal dəyərinə mütənasib surətdə səhmi buraxmış səhmdar cəmiyyətinin nizamnamə kapitalında iştirakını, mənfəətindən dividendlər, ləğvindən sonra isə qalan əmlakının hissəsini almaq hüququnu, həmçinin səhmdar cəmiyyətinin idarə olunmasında iştirak etmək hüququnu təsdiqləyən investisiya qiymətli kağızıdır
b) Adi səhm mülkiyyətçisinə emitentin mənfəətinin bir hissəsini dividendlər şəklində almaq, emitentin fəaliyyətinin idarə olunmasında iştirak etmək və emitentin ləğvindən sonra qalan əmlakının bir hissəsini əldə etmək hüququnu verən səhm növüdür.
c) İmtiyazlı səhm emitentin fəaliyyətinin nəticəsindən asılı olmayaraq, mülkiyyətçisinə səhmin nominal dəyərinin sabit faizi şəklində dividend almasına təminat verən, emitentin ləğvindən sonra qalan əmlakının bir hissəsini almaqda digər səhmdarlara nisbətən üstünlük hüququnu, habelə səhmlərin buraxılış şərtlərində və emitentin nizamnaməsində nəzərdə tutulan digər hüquqlar verən səhm növüdür
d) Məhdud məsuliyyətli cəmiyyətlər səhm emissiya edə bilər

**222. Lizinq müqaviləsi haqqında qeyd edilənlərdən biri doğru deyil**

a) Lizinq müqaviləsinə görə lizinq verən müəyyən əşyanı müqavilə ilə şərtləşdirilmiş müəyyən haqla, müəyyən müddətə və digər şərtlərlə (lizinq alana əmlakı satın almaq hüququnun verilməsi də daxil olmaqla) lizinq alanın istifadəsinə verməyə borcludur.
b) Lizinq müqaviləsində lizinq ödənişlərinə lizinq obyektindən istifadəyə başlanıldığı vaxtından 3 ay (90 gün) keçənədək möhlət verilməsi nəzərdə tutula bilər.
c) Lizinq verən lizinq müqaviləsi üzrə öz hüquqlarını üçüncü şəxsə tam və ya qismən güzəşt edə bilər.
d) Lizinqin əsas formalarına daxili (tərəflər rezidentdir) və beynəlxalq lizinq aiddir.

**223. Borc müqaviləsi haqqında qeyd edilənlərdən biri doğru deyil**

a) Borc müqaviləsi tərəflərin razılaşması ilə şifahi və ya yazılı formada bağlanır. Borc müqaviləsi predmetinin məbləği üç min manatdan çoxdursa və ya məbləğindən asılı olmayaraq müqavilənin iştirakçısı hüquqi şəxsdirsə, borc müqaviləsi yazılı formada bağlanmalıdır.
b) Borc müqaviləsinin predmeti hər hansı pul məbləği olduqda, o, kredit müqaviləsi adlandırılır.
c) Əgər bir illik müqavilənin iştirakçıları borcun faizlər ilə verilməsini şərtləşdirirlərsə, faizlər müvafiq surətdə hər rüb üzrə ödənilməlidir.
d) Əgər borcun qaytarılması üçün müddət qoyulmayıbsa, o, borc verən və ya borc alan tərəfindən borc müqaviləsi ləğv edilərkən qaytarılmalıdır.

**224. Daşınar əmlakın yüklülüyünə dair qeyd edilənlərdən biri doğru deyil**

a) Eyni daşınar əmlak bir neçə yüklülüyün predmeti ola bilər.
b) Yüklülük və yüklülüyə dəyişikliklər edilməsi haqqında bildirişlərin reyestrə daxil edilməsi üçün 110 AZN rüsum ödənilməlidir
c) Daşınar əmlakın yüklülüyü dövlət, bələdiyyə və xüsusi yüklülük növlərinə bölünür.
d) Dövlət yüklülüyü üzrə yüklülük sahibi öz üstünlük növbəsini xüsusi yüklülük üzrə yüklülük sahibinə güzəşt edə bilməz.

**225. Xüsusi yüklülüyə aşağıdakılardan biri daxil deyil (Mülki Məcəlləyə uyğun olaraq)**

a) məhkəmə tərəfindən məcburi icra tədbiri kimi daşınar əmlak üzərinə həbs qoyulması
b) daşınar əmlakın uzufruktu, mülkiyyət hüququnun saxlanması haqqında qeyd-şərt
c) daşınar əmlakın lizinqi, podratçının hazırladığı daşınar əşyaya girov hüququ, komisyonçunun təminat (girov) hüququ, anbar sahibinin girov hüququ
d) mehmanxana və ya restoran sahibinin girov hüququ, daşınar əmlakın rentası, pul tələbinin faktora güzəşt edilməsi hüququ

**226. Dövlət və bələdiyyə yüklülüyünə aşağıdakılar biri daxil deyil**

a) Gömrük , vergi orqanı tərəfindən kredit təşkilatına və ya bank əməliyyatları aparan şəxsə icra (ödəniş) sənədi olan sərəncam verilməsi,
b) məhkəmə tərəfindən daşınar əmlak barəsində müvəqqəti xarakterli müdafiə tədbirinin tətbiq edilməsi, iddianı təmin etmə tədbirinin görülməsi, əmlak müsadirəsini təmin etmək məqsədi ilə daşınar əmlak üzərinə həbs qoyulması
c) kirayəyə verənin və icarəçinin, icarəyə verənin girov hüququ

d) gömrük orqanı tərəfindən həm mövcud, həm də yarana biləcək gömrük borclarına görə təminat götürülməsi,vergi orqani tərəfindən vergiödəyicisinin əmlakının siyahıya alınması

**227. Aşağıdakılardan hansı inzibati xətanın predmeti hesab edilmir**

a) valyuta sərvətlərinin ictimai yerlərdə alınıb-satılmasına və ya dəyişdirilməsi, ödəniş vasitəsi kimi qəbul edilməsi
b) * Sahibkarın razılığı olmadan kommersiya və ya bank sirri təşkil edən məlumatların tamah və ya başqa şəxsi niyyətlə qanunsuz yolla istifadə edilməsinə və ya yayılması
c) Avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmaması, xarici valyuta vəsaitlərinin xaricdən qaytarılmaması
d) Kredit təşkilatları tərəfindən Azərbaycan Respublikası Mərkəzi Bankının və maliyyə bazarlarına nəzarət orqanin müəyyən etdiyi məcburi normativlər təmin edilmədiyinə görə

**228. Aşağıdakılardan hansı inzibati xətanın predmeti hesab edilmir**

a) Banklar tərəfindən müştərilərin kredit müraciətinə imtina edilməsi
b) Əmanətlərin Sığortalanması Fonduna sığorta haqları üzrə ödənişlərin müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun müəyyən etdiyi müddətdə tam ödənilməməsi
c) Bank və ya xarici bankın yerli filialı tərəfindən prudensial, maliyyə və bank statistikası hesabatlarının təqdim edilməsi qaydalarının pozulması
d) Mərkəzləşdirilmiş kredit reyestrinə məlumatların təqdim edilməsi qaydalarının pozulması, Daşınar əmlakın yüklülüyü haqqında qanunvericiliyin pozulması

**229. Vergi orqani ilə aparılan əməliyyatlarda bankların məsuliyyətinə dair qeyd edilənlərdən biri doğru deyil**

a) Banklar hüquqi şəxslərə, onların filial və nümayəndəliklərinə, fərdi sahibkarlara yalnız onlar vergi orqanı tərəfindən verilən şəhadətnamə-dublikatını təqdim etdikdən sonra bank hesabları açırlar. Şəhadətnamə-dublikat alındığı tarixdən 10 gün müddətində hesabın açılması üçün istifadə olunmadıqda qüvvədən düşmüş hesab edilir.
b) Vergi borcunun bank hesabinda dondurulması tələbi gəldikdə bank müştərinin milli və ya xarici valyutada cari və ya digər hesablarında borc məbləğinin 105 faizi həcmində pul vəsaiti üzrə məxaric əməliyyatları məhdudlaşdırır
c) Vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsait olduqda vergi orqanının alınmalı sərəncamı bank və ya digər kredit təşkilatı tərəfindən 3(üç) gün ərzində icra edilir.
d) Sərəncam gəldiyi zaman müştərinin hesabinda vəsait olmadığı və qismən kifayət etdiyi halda sərəncam bankda saxlanılır, vəsait daxil olduqca icra edilir

**230. Vergi orqani ilə münasibətdə aşağıdakı hallardan biri pozuntu hesab edilmir**

a) şəhadətnamə-dublikat olmadan hesab açılması
b) Hesab açılan zaman FATCA, W- BEN sənədinin müştəridən alınmaması
c) Vergi orqanin məlumat tələbi barədə 5 iş günü müddətində hesab sahibinə rəsmi məlumatin göndərilməməsi
d) 15 gün müddətində tələb olunan məlumatların vergi orqanına təqdim edilməsi

**231. Vergi orqani ilə aparılan sərəncam əməliyyatlarına dair qeyd edilənlərdən biri doğru deyil**

a) Vergi orqaninin sərəncamı valyutada olan hesaba daxil olduqdan sonra 10 bank günü ərzində müştəri vəsaiti konvertasiya edib ödəniş etməsə növbəti iş günü Mərkəzi Bankin kursu ilə bank məbləği konvertasiya edib ödəniş edir
